AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL

2025, №3/252

JOURNAL of PRESCHOOL
and PRIMARY EDUCATION

# Jurnalın indekslənməsi/ Indexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

ESJI www.ESJIndex.org Eurasian Scientific Journal Index

Directory of Research Journal Indexing DRJI

CYBERLENINKA

ROOTINDEXING JOURNAL ABSTRACTING AND INDEXING SERVICE

CiteFactor Academic Scientific Journals

ResearchGate

OpenAlex

INTERNET ARCHIVE

calaméo

idealonline

Scilit

ERIHPLUS EUROPEAN REFERENCE INDEX FOR THE HUMANITIES AND SOCIAL SCIENCES

MIAR

INDEX COPERNICUS INTERNATIONAL

PSIref Bringing ideas to light

doi® digital object identifier

Shibata

Academia.edu share research

Clarivate

Dimensions

## MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL

Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunmağa başlayıb. Jurnal 2000-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirir. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişdirilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçi-uşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

## PRESCHOOL and PRIMARY EDUCATION

Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies». The journal has been operating as the scientific-methodical publication of the Ministry of Science and Education Republic of Azerbaijan since 2000. ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)

The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2025

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
**“Məktəbəqədər və ibtidai təhsil” jurnalı**

**Baş redaktor əvəzi**
Böyükağa Mikayıllı

**Redaksiya heyəti**

**Aqşin Əliyev** (Pekin Xarici Dillər Universiteti)
**Arif Əsədov** (Bakı şəhəri, 291 nömrəli Ekologiya liseyi)
**Xalidə Musayeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Laləzar Cəfərova** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Müseyib İlyasov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Natalya Naumova** (Rusiya Federasiyası Samara Humanitar Akademiyası)
**Səidə Əhmədova** (BŞTİ, Təlimə Dəstək Mərkəzi)
**Tran Mai Uoc** (Vyetnam Bank Universiteti)
**Təranə Mirzəyeva** (Göyçay şəhər, 3 nömrəli tam orta məktəb)
**Uğurcan Toqay** (Türkiyə Milli Təhsil Nazirliyi)
**Ülviyyə Mikayılova** (ADA Universiteti)

**Redaksiya şurası**

**Akif Abbasov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Anar Xələfov** (Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi)
**Asəf Zamanov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Arzu Süleymanova** (177 nömrəli tam orta məktəb)
**Buket Akkoyunlu** (Çankaya Universiteti, Türkiyə)
**Cəlal Allahverdiyev** (Azərbaycan Dövlət İqtisad Universiteti)
**Doris Bühler-Niederberger** (Wuppertal Universiteti, Almaniya)
**Elnarə Məmmədova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Elvin Rüstəmov** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**Eve Eisenschmidt** (Tallin Universiteti, Estoniya)
**Ənvər Abbasov** (Bakı Slavyan Universiteti)
**Fərrux Rüstəmov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Gülşən Eminova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Guljahon Jumanazarova** (Jizzax Dövlət Pedaqoji Universiteti, Özbəkistan)
**Hamlet İsaxanlı** (Xəzər Universiteti, Azərbaycan)
**Hümeyir Əhmədov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Həqiqət Hacıyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**İntiqam Cəbrayılov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**İlahə Rəsulova** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**İradə Məlikova** (74 nömrəli tam orta məktəb)
**İlham Cavadov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Könül Pirverdiyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Qüdsiyyə Qəmbərova** (AMEA Nəsimi adına Dilçilik İnstitutu)
**Nodira Soatova** (Jizzax Dövlət Pedaqoji Universiteti)
**Pavel Luşin** (Ukrayna Pedaqoji Elmlər Akademiyası)
**Ramiz Əliyev** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Sübhan Talıblı** (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı)
**Surayyo Eşonkulova** (Alfraqanus Beynəlxalq Universiteti, Özbəkistan)
**Şəhla Əliyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Vidadi Xəlilov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Vira Remajevskaya** («Lewenia» Təhsil və Reabilitasiya Mərkəzi, Ukrayna)
**Valeri Kiricuk** (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyası)

**Redaksiya**
Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən
Həsənova, Arzu Nuruzadə, İradə Əsədova, Fəridə Əhmədova, Selcan Heydərova

**Redaksiyanın ünvanı:**
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

THE MINISTRY OF SCIENCE AND EDUCATION THE REPUBLIC OF AZERBAIJAN
**Journal of Preschool and Primary Education**


## Editor-in-chief
Boyukagha Mikayilli

## Editorial Board

**Agshin Aliyev** (Beijing Foreign Studies University)
**Arif Asadov** (Baku city, Ecological Lyceum No.291)
**Khalida Musaeva** (Azerbaijan State Pedagogical University)
**Lalazar Jafarova** (Education Institute of the Republic of Azerbaijan)
**Museib Ilyasov** (Azerbaijan State Pedagogical University)
**Natalya Naumova** (Russian Federation Samara Humanitarian Academy)
**Saida Akhmedova** (Training Support Center of the Education Department of Baku)
**Tran Mai Uoc** (Banking University Vietnam)
**Tarana Mirzeyeva** (Goychay city, Secondary school No. 3)
**Ugurcan Togay** (Republic of Türkiye Ministry of National Education)
**Ulviya Mikayilova** (ADA University)

## Editorial council

**Akif Abbasov** (Education Institute of the Republic of Azerbaijan)
**Anar Khalafov** (The State Agency for Preshool and General Education)
**Asef Zamanov** (Azerbaijan State Pedagogical University)
**Arzu Suleymanova** (Secondary school No. 177)
**Anvar Abbasov** (Baku Slavic University)
**Buket Akkoyunlu** (Çankaya University, Turkey)
**Jalal Allahverdiyev** (Azerbaijan State University of Economics)
**Doris Bühler-Niederberger** (University of Wuppertal, Germany)
**Elnara Mammadova** (Azerbaijan State Pedagogical University)
**Elvin Rustamov** (Ministry of Science and Education Republic of Azerbaijan)
**Eve Eisenschmidt** (Tallinn University, Estonia)
**Farrukh Rustamov** (Azerbaijan State Pedagogical University)
**Gulshan Eminova** (Azerbaijan State Pedagogical University)
**Guljahon Jumanazarova** (Jizzakh State Pedagogical University, Uzbekistan)
**Hamlet Isakhanli** (Khazar University, Azerbaijan)
**Humeyir Ahmadov** (Institute of Education of the Republic of Azerbaijan)
**Hagigat Hajiyeva** (Azerbaijan State Pedagogical University)
**Intigam Jabrayilov** (Institute of Education of the Republic of Azerbaijan)
**Ilaha Rasulova** (Ministry of Science and Education Republic of Azerbaijan)
**Irada Malikova** (Secondary school No. 74)
**Ilham Javadov** (Education Institute of the Republic of Azerbaijan)
**Konul Pirverdiyeva** (Azerbaijan State Pedagogical University)
**Qudsiyya Gambarova** (İnstitute of Linguistics named after Nasimi, ANAS)
**Nodira Soatova** (Jizzakh State Pedagogical University, Uzbekistan)
**Pavel Lushin** (Academy of Pedagogical Sciences of Ukraine)
**Ramiz Aliyev** (Azerbaijan State Pedagogical University)
**Subhan Talıblı** (The Shamakhi branch of the Azerbaijan State Pedagogical University)
**Surayo Eshonkulova** (Alfraqanus International University, Uzbekistan)
**Shahla Aliyeva** (Azerbaijan State Pedagogical University)
**Vidadi Khalilov** (Education Institute of the Republic of Azerbaijan)
**Vira Remajevskaya** (Education and Rehabilitation Center «Lewenia», Ukraine)
**Valery Kirichuk** (The National Academy of Pedagogical Sciences of Ukraine)

**Editorial team**
Mahabbat Aliyeva, Landa Jafarova, Aytan
Hasanova, Arzu Nuruzade, Irada Asadova, Farida Ahmadova, Seljan Heydarova


**Adress:**
37 Nasimi St., Baku, Azerbaijan 1118
Tel: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

İÇİNDƏKİLƏR / №3, 2025

**Şərafət Baxışova**
Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin didaktik əsasları 9-24

**İlahə Şıxəliyeva**
Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsil mühitinin yaradılması:pedaqoji yanaşma 25-39

**Vahidə Azayeva**
Effektiv ünsiyyətin təmini: dinləyib-anlamanın əhəmiyyəti 41-51

**Günel Əhmədova**
İntellektual inkişaf pozuntusu olan kiçik yaşlı uşaqlarda eşitmə yaddaşının formalaşmasında şeir əzbərləmənin rolu 53-64

**Təranə Paşayeva**
Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti və müəllimlik irsi 65-74

**Səbinə Rəhimova**
Məktəbəqədər təhsildə öyrənmə prosesinə layihə əsaslı yanaşma 75-90

**Pərişan Həsənova**
Məktəbəqədər təhsildə uşaqların intizam tərbiyəsi və onun bəzi problemləri 91-101

CONTENTS / №3, 2025

**Sharafat Bakhishova**
Didactic foundations of developmental teaching in preschool educational institutions 9-24

**Ilaha Shikhalieva**
Creating an inclusive educational environment in preschool institutions: a pedagogical approach 25-39

**Vahida Azayeva**
Ensuring effective communication: the importance of listening comprehension 41-51

**Gunel Ahmadova**
The role of poem memorization in the development of auditory memory in young children with intellectual developmental disorders 53-64

**Tarana Pashayeva**
Pedagogical activity and teaching legacy of Safarali bey Valibayov 65-74

**Sabina Rahimova**
Project-based approach to the learning process in preschool education 75-90

**Perishan Hasanova**
Disciplinary education of children in preschool education and some of its problems 91-101

# DIDACTIC FOUNDATIONS OF DEVELOPMENTAL TEACHING IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

**Sharafat Bakhishova**

Azerbaijan State Pedagogical University,
Department of Preschool Education Pedagogy and Methodology,
Associate Professor, Doctor of Sciences in Pedagogy
E-mail: sharafat_baxishova1960@mail.ru
https://orcid.org/0000-0003-7848-2068

**Abstract.** The study explores the topic of "Didactic Foundations of Developmental Teaching in Preschool Educational Institutions," clarifying its essence and analyzing contemporary pedagogical approaches, the content of teaching, methods and technologies, as well as factors influencing children's individual, social, and emotional development. It emphasizes that the comprehensive development of children's cognition primarily requires the implementation of developmental teaching, ensuring continuity throughout the process. The teaching technology model should be designed in such a way that educators focus all their efforts on fostering self-development and personality growth in organizing the educational process. The research provides a detailed explanation of the importance of applying methods that stimulate cognitive activity, as well as the effective organization of learning sessions. Theoretical and practical recommendations for the implementation of developmental teaching are also presented.

**Keywords:** developmental teaching technology, development of cognitive functions, creative thinking, didactic foundations, interactive training.

**DOI:** 10.30546/2709-2488.3.2025.0113
**To cite this article:** Bakhishova Sh. (2025). Didactic foundations of developmental teaching in preschool educational institutions. *Journal of Preschool and Primary Education*, Vol. 252, Issue III, pp. 9-24.
**Article history:** received – 03.07.2025; accepted – 07.08.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKİŞAFETDİRICİ TƏLİMİN DİDAKTİK ƏSASLARI

**Şərafət Baxışova**

ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası
kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru
E-mail: sharafat_baxishova1960@mail.ru
https://orcid.org/0000-0003-7848-2068

**Annotasiya.** Tədqiqatda məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin didaktik əsasları mövzusu üzərində araşdırma aparılır, mahiyyəti tədqiq edilir, müasir pedaqoji yanaşmalar, təlimin məzmunu, metod və texnologiyaları, uşaqların fərdi, sosial, emosional inkşafına təsir edən amillər və s. məsələlər təhlil olunur. Qeyd olunur ki, uşaqların idrakının hərtərəfli inkişaf etdirilməsi, ilk növbədə, inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesdə varisliyin gözlənilməsini tələb edir və təlim texnologiyasının modeli elə təqdim edilməlidir ki, tərbiyəçi-müəllim təlim prosesinin təşkilində bütün səylərini özünüinkişafa və şəxsiyyətin inkişafına yönəltsin. Tədqiqatda inkişafetdirici təlimin tətbiqində idrak fəallığını stimullaşdıran metodların, məşğələlərin təşkili və onların səmərəli tətbiqinin əhəmiyyəti ətraflı izah olunur. Eyni zamanda inkişafetdirici təlimin səmərəli təşkili üçün nəzəri, praktik tövsiyələr təqdim edilir.

**Açar sözlər:** inkişafetdirici təlim texnologiyası, idraki funksiyaların inkişafı, yaradıcı təfəkkür, didaktik əsaslar, interaktiv təlim formaları.

**DOI:** 10.30546/2709-2488.3.2025.0113
**Məqaləyə istinad:** Baxışova Ş. (2025). Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin didaktik əsasları. «*Məktəbəqədər və ibtidai təhsil*», № 3 (252), səh. 9-24.
**Məqalə tarixçəsi:** göndərilib – 03.07.2025; qəbul edilib – 07.08.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

"Demokratiya və təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazmışdır: "Təhsil həyata hazırlıq deyil, təhsil həyatın özüdür" [Dewey, J., 2000].

Təhsil keyfiyyət prosesidir, hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün zəruridir. Biz artıq elə bir sürətlə inkişaf edən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərlə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyətə deyil, keyfiyyətə yönlənməlidir. Müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir.

"Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nda ["Azərbaycan müəllimi"., 2013] ikinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

Bu gün məktəbəqədər yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşdırılmasında daha çox diqqət yetirilməli olan – onun təfəkkürünün və intellektual potensialının inkişaf etdirilməsidir.

Professor Y.Kərimov insanın şəxsiyyət kimi formalaşmasında onun fəallığının mühüm rol oynadığını qeyd edərək şəxsiyyət adlanan mürəkkəb bütövdə üç əsas cəhəti fərqləndirməyin mümkünlüyünü göstərir:

1) Fəallıq idraka, ətraf aləmdəki dəyişikliyə, insanın şəxsi təbiətinin dəyişməsinə, psixi həyat tərzində baş verənlərin korrektəsinə (özünütərbiyəyə) yönəlmiş çoxtərəfli fəaliyyətdə özünü göstərir.

2) Şəxsiyyətin imkanları, onun fəaliyyətinin müvəffəqiyyətlərinin psixoloji şərtlərini (xüsusilə qabiliyyəti) əhatə edir.

3) Şəxsiyyətin davranış üslubu psixoloji xüsusiyyətləri (temperament və xarakter) əhatə edir. Fəallıq ətraf aləmlə qarşılıqlı fəaliyyət prosesində meydana çıxır [Kərimov, Y.Ş., 2010].

Araşdırmalar göstərir ki, məktəbəqədər müəssisələrdə inteqrativ təlimə, yeni təlim texnologiyalarının tətbiqinə, müxtəlif fəaliyyət növlərinin əlaqələndirilməsinə, inkişafetdirici təlimin təmin olunmasına kifayət qədər diqqət yetirilmir. Tərbiyəçi-müəllimlərin bir qismi inkişafetdirici təlimin mahiyyətini dərk etmir,

yaradıcı yanaşma ilə işləməyi bacarmır, metodik kömək, zəruri ləvazimatlar əldə etməsi mümkün olmur və təlimdə hələ də ənənəvi metodları tətbiq etdikləri üçün bu problemə lazımi əhəmiyyət verə bilmirlər. Müşahidələr göstərir ki, bəzi yaradıcı, yenilikçi tərbiyəçi-müəllimlərin gözlənilən nəticəni əldə edə bilməmələrinin səbəbi məktəbəqədər müəssisə rəhbərlərinin, tərbiyəçi-müəllimlərin inkişafetdirici təlim haqqında pedaqoji-psixoloji, nəzəri və praktik biliklərinin kifayət qədər olmamasıdır. Bu zərurətdən məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzəri və praktik əsaslarının tədqiqinə ehtiyac yaranmışdır.

Müasir təhsil insanın əqli fəaliyyətinin təşkil olunmasının daha təsirli üsullarını aşkarlamağa və istifadə etməyə çalışır. Buna görə də yeni tədris metodologiyaları və texnologiyaları sınaqdan keçirilir, praktik fəaliyyətə əsaslanan tədris metodları istifadə olunur, öyrənənlərə yönəlmiş təhsilin məzmunu, ümumi və peşəkar təhsildə pedaqoqun rolu və ona olan tələblər dəyişir. İnnovativ texnologiyalara əsaslanan fəal və interaktiv pedaqoji metodlar passiv ənənəvi tədris modelini sıxışdırır.

Təhsildə bu yeni yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, təfəkkürün, şəxsi keyfiyyət və qabiliyyətlərin inkişaf etdirilməsinə, həyat üçün zəruri olan bacarıqların qazanılmasına yönəldilsin. Ənənəvi təhsil, əsasən, bilik verilməsinə yönəlmişdirsə, müasir təhsil uşaqyönümlülük, nəticəyönümlülük, şəxsiyyətyönümlülük, tələbyönümlülük prinsiplərinə əsaslanır, bu baxımdan səriştəlilik əsas hədəf kimi qarşıda durur. Bunun üçün, ilk növbədə, uşağın idrakının inkişafını təmin etmək vəzifəsi ön plana keçir.

Yüksək intellektual hazırlığa malik, qazandığı biliklərdən istifadə etməyi bacaran, milli-mənəvi və ümumbəşəri dəyərlərə yiyələnmiş, fəal, şüurlu, məsuliyyətli, rəqabətədözümlü, konstruktiv şəxsiyyətin yetişdirilməsi müasir təhsilimizin əsas mahiyyət və məqsədini təşkil edir.

İnkişafetdirici təlim şəxsiyyətin inkişaf qanunauyğunluqlarına bilavasitə yönələn təlimdir, məktəbəqədər müəssisələrin təlim potensialının maksimum səmərəli həyata keçirilməsini təmin edir. Bu prosesdə inkişafetdirici effekt birbaşa nəticəni göstərir. Bu təlim növü yalnız idrak funksiyalarının (təfəkkürün, qavramanın, yaddaşın və s.) inkişafı ilə məhdudlaşmır, həmçinin insan fəaliyyətinin müxtəlif növ və formalarında uşağın subyekt kimi formalaşmasına xüsusi diqqət yetirir, uşağa şəxsiyyət kimi baxaraq onun gələcək inkişafı üçün maksimum əlverişli şərait yaradır.

İnkişafetdirici təlim inkişaf qanunauyğunluqlarını nəzərə alır və istifadə edir, fərdin səviyyəsinə və xüsusiyyətlərinə uyğunlaşdırılır. İnkişafetdirici təlimdə pedaqoji təsirlər stimullaşdırır, istiqamətləndirir və şəxsiyyətin irsi göstəricilərinin inkişafını sürətləndirir, yəni təlim inkişafdan irəlidə gedir. İnkişafetdirici təlim

uşağın şəxsi keyfiyyətlərinin bütöv məcmusunun inkişafına istiqamətlənir və uşağın "yaxın inkişaf zonası"nda baş verir.

İnkişafetdirici təlim öz əsasını Y.A.Komenski, İ.H.Pestalotsi, J.J.Russo, İ.F. Herbart, K.D.Uşinski və başqalarının əsərlərindən götürür. Bunun elmi cəhətdən əsaslandırılması, inkişafetdirici təlimin konsepsiyası, yəni uşağın inkişafında əsas məqsədə çatmaq üçün təlimin inkişafdan qabaqda getməsi ideyası XX əsrin 20 – 30-cu illərində, ilk dəfə L.S.Vıqotski tərəfindən irəli sürülmüşdür. Onun fərziyyəsinə görə biliklər təlimin son məqsədi yox, yalnız şagirdin inkişaf vasitəsidir.

L.S.Vıqotskinin çox önəmli tezisinə görə təlim və inkişaf vəhdət təşkil edir. Bu zaman təlim inkişafı qabaqlayaraq onu stimullaşdırır, eyni zamanda da özü aktual inkişafa əsaslanır. Beləliklə, "təlim uşaqların inkişafının dünəninə yox, sabahına yönəlməlidir" [Vıqotski, L.S., 1991].

Müasir psixologiya elmində şəxsiyyətin təlimi və inkişafının dialektik qarşılıqlı əlaqələri haqqında L.S.Vıqotskinin irəli sürdüyü konsepsiya geniş yayılmaqla, bir çox dünya psixoloqları tərəfindən qəbul olunmuşdur və burada aparıcı rol təlimə verilir. Təlim didaktikanın komponentidirsə, inkişaf psixoloji prosesdir. Uşağa qarşı tərbiyədə düzgün və optimal metod və vasitələrin seçilməsi, tələblərdə həssaslıq, münasibətlərdə və cəzada ölçü hissinin gözlənilməsi, hörmət və tələbkarlığın məharətlə uzlaşdırılması və s. kimi amillərin nəzərə alınması onlarda şıltaqlıq, tərslik, xudbinlik kimi mənfi iradi xüsusiyyətlərin aradan qaldırılmasını təmin edə bilir. Ümumiyyətlə, uşağın psixi inkişafı, idraki təxəyyülü, təlim və tərbiyəsi, nitqinin inkişafı, ünsiyyət qurmaq bacarığına malik olması doğulub böyüdüyü ailədən, mühitdən əsaslı formada asılıdır. Mövcud təhlillər deməyə əsas verir ki, bu nəzəriyyə XX əsrdə L.S.Vıqotski, A.N.Leontyev, S.L.Rubinşteyn, D.B.Elkonin və başqalarının əsərlərində də öz təsdiqini tapmışdır.

Biliklərin mənimsənilməsi üsullarının əldə edilməsi insanın fəallığının əsasını təşkil edir və onun özünüdərk prosesini müstəqil qurmağı bacaran subyekt kimi dərk etməsinə şərait yaradır.

Yaradıcı təfəkkür aşağıdakı qabiliyyətləri xarakterizə edir:

- əvvəllər heç kimin əldə etmədiyi nəticələrin əldə edilməsi;
- arzu olunan nəticəni əldə etmək üçün situasiyada əvvəlcədən bilməyərəkdən müxtəlif yollardan istifadə etmək imkanının olması;
- nəticənin əldə edilməsi üçün üsulların müxtəlifliyi;
- bu cür vəzifələrin həll edilməsi üçün kifayət qədər təcrübənin olmaması;
- başqasının müdaxiləsi olmadan müstəqil fəaliyyət göstərməyin zəruriliyi.

İnkişafetdirici təlim məktəbəqədər müəssisələrin təhsil potensialının maksimum səmərəli həyata keçirilməsini təmin edir.

İnkişafetdirici təlimin müvəffəqiyyətini təmin etmək məqsədilə şəxsiyyətin inkişafının xüsusiyyətlərini və onun qanunauyğunluqlarını nəzərə almaq vacib

faktordur.

Formalaşma və inkişaf şəxsiyyətin son dərəcə mühüm xüsusiyyətidir (immanentlik xüsusiyyəti). İmmanentlik - latınca immanentis - nəyinsə daxilində olan, nəyə isə xas olan bu və ya digər xassəni, qanunauyğunluğu bildirən anlayışdır. Bu, aşağıdakı amilləri özündə ehtiva edir:

- şəxsiyyətin formalaşması və inkişafında irsiyyət amilinin rolunun böyük olması (biogen xüsusiyyət);
- şəxsiyyətin formalaşması və inkişafına sosial mühitin təsiri (sosiogen xüsusiyyət);
- şəxsiyyət özünüidarə edən və özünütənzimləyən mürəkkəb sistemdir.
- şəxsiyyət özünəməxsus xüsusiyyətləri, keyfiyyətləri, təkrarolunmaz fərdi inkişaf variantı olan unikal bir varlıqdır (fərdilik xüsusiyyəti).
- şəxsiyyətin inkişafı ümumi dialektik qanunauyğunluqlar əsasında baş verir (mərhələli inkişaf).
- hər bir şəxsiyyətin özünəməxsus inkişaf tempi var (inkişafın qeyri-bərabər və ziddiyyətli olması).
- psixi inkişafın kəmiyyət və keyfiyyət dəyişmələri fiziki dəyişmələrlə müəyyən edilir.

Beləliklə, məlum olur ki, inkişafetdirici təlimi təşkil edərkən, müvəffəqiyyət qazanmaq üçün həm şəxsiyyətin inkişaf qanunauyğunluqları, həm də hər bir fərdin özünəməxsus xüsusiyyətlərini və inkişaf səviyyələrini nəzərə alaraq müvafiq şərait yaratmaqla qabaqlayıcı metod və texnologiyalardan istifadə etmək zəruridir [Rüstəmov, F.A., Dadaşova, T.Y., 2007].

Y.A.Vinoqradova “Məktəbəqədər təhsil: inkişafın vəziyyəti və əsas problemləri (sosioloji təhlil)” adlı dissertasiya işində məktəbəqədər dövrdə uşağın inkişaf prosesinin mürəkkəb sosial fenomen kimi çıxış etdiyini və bunu da elmi fənlərin – fəlsəfənin, psixologiyanın, sosiologiyanın, pedaqogikanın imkanlarından istifadə edərək kompleks təhlil etməyin vacibliyini göstərir. Müəllif sosioloji təhlil apararaq belə nəticəyə gəlir ki, göstərlən yanaşmaların əsas inteqrasiya əlaqələndiricisi qismində sosioloji yanaşmadır, çünki o, təhsildə şəxsiyyətyönümlüyü, ictimailiyi, obyektivliyi və subyektivliyi birləşdirməyə imkan verir. Uşaq şəxsiyyətinin inkişafı əsas fəaliyyət növləri olan ünsiyyət, oyun, təlim prosesində reallaşır. Bunların hər biri insan həyatının sosial mühitdir” [Vinogradova, E.A., 2001].

**Problemin qoyuluşu**

Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində uşaqların yaradıcı düşüncəsini, sosial-emosional bacarıqlarını və idrak fəallığını inkişaf etdirmək üçün inkişafetdirici təlimin tətbiqinə ehtiyac artmışdır. Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin səmərəli təşkili didaktik tələblərdən asılıdır. Didaktik

tələblərin gözlənilməsi, ona ciddi əməl edilməsi məşğələnin daha effektli, daha canlı keçirilməsinə səbəb olur. Aparılan araşdırmalar da göstərir ki, inkişafetdirici təlim məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafını təmin edən mühüm pedaqoji yanaşmadır. Onun didaktik əsaslarının düzgün müəyyənləşdirilməsi və tətbiqi uşaqlarda yaradıcı, məntiqi, sosial və emosional bacarıqları inkişaf etdirir. Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin tətbiqi gələcək təhsil mərhələləri üçün möhkəm zəmin yaradır.

**Metodlar**

Tədqiqatda pedaqoji və psixoloji ədəbiyyatın nəzəri təhlili, müqayisəli analiz, müşahidə metodlarından istifadə edilmişdir. Məşğələnin təşkili və keçirilməsinin, onun məzmununun müəyyənləşdirlməsinin təhlili üzrə müşahidələr aparılmışdır. Eyni zamanda pedaqoji və psixoloji ədəbiyyat, dövlət sənədi təhlil olunmuşdur.

## Əsas hissə / Main part

İnnovativ rejimdə tərbiyəçi-müəllimlər inkişafetdirici texnologiyalarla işləyərkən təlimin interaktiv forma və metodlarından istifadə edirlər. Bütün fəaliyyət növləri üzrə interaktiv təlim prosesində uşaq və tərbiyəçi-müəllim arasında yüksək qarşılıqlı təsir səviyyəsi müşahidə olunur. Bu cür qarşılıqlı təsir, adətən, müzakirə formasında həyata keçirilir. Tərbiyəçi-müəllim tərəfindən elə təlim mühiti yaradılır ki, burada uşaq öz bilik və bacarıqlarını kəşf etməyə, əldə etməyə və tətbiq etməyə qadir olsun.

Problemin həlli prosesi cavab almaqdan daha vacib və mühümdür. Çünki interaktiv metodika informasiyanı ötürməklə məhdudlaşmır, eyni zamanda idraki fəaliyyəti aktivləşdirir. Bunun müvəffəqiyyətli həlli üçün idraki maraqların inkişafına təsir göstərən metodlardan istifadə olunur, uşaqların fəaliyyət motivlərini formalaşdırmaq məqsədilə müəyyən şərait yaradılır ki, fəaliyyət prosesinə maraq inkişaf etsin.

M.V.Lazarevanın "Məktəbəqədər təhsil müəssisələrində inteqrativ təlim" adlı dissertasiyasının konseptual ideyası ondan ibarətdir ki, inteqrativ təlim məktəbəqədər yaşlı uşaqların inkişafında idraki və tərbiyəvi potensialın səmərəli istifadəsini nəzərdə tutan didaktik sintezə əsaslanır [Lazareva, M.V., 2003]. Bu müddəa, həmçinin ətraf aləm, onunla qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq haqqında tam təsəvvürləri formalaşdırır.

İnteqrativ təlimə yanaşmaların sintezi onun məzmun və struktur aspektlərini də xarakterizə etməyə imkan verir. İnteqrativ yanaşma pedaqoji prosesin əsasını təşkil edərək, məqsəd və vəzifələrə uyğun olaraq komponentlərin hər birində ideyaların qarşılıqlı əlaqəsinin təmin edilməsini nəzərdə tutur ki, bu da onun tamlıq səviyyəsini yüksəldir. Məktəbəqədər təhsildə inteqrativ yanaşma aşağıdakılardan

ibarətdir:

- ətraf aləm haqqında bütöv təsəvvürlərin formalaşması əsasında tərbiyə və inkişafın prioritet məqsəd və vəzifələrinin reallaşması;
- yalnız məzmun deyil, həm də tərbiyə və inkişafın formal məqsəd və vəzifələrinin həyata keçirilməsi;
- proqramın müxtəlif bölmələrinin məzmun komponentlərinin və məzmun daxili əlaqəsinin gücləndirilməsi;
- təlim-tərbiyədə metod və priyomların qarşılıqlı təsiri (metodiki inteqrasiya);
- uşaq fəaliyyəti növlərinin sintezi;
- təlimin təşkilinin inteqrativ formalarının tətbiqi: mürəkkəb strukturu olan inteqrativ məşğələlər, məşğələlər tsikli, mövzu günləri və s.

Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlimin səmərəli təşkili didaktik tələblərdən asılıdır. Didaktik tələblər hər bir mərhələdə riayət edilməsi vacib olan didaktik prinsiplərlə əlaqədardır. Didaktik tələblərin gözlənilməsi, ona ciddi əməl edilməsi məşğələnin daha effektli, daha canlı keçirilməsinə səbəb olur. Didaktik tələblərə metod və priyomların, təlimin forma və tiplərinin seçilməsi, qrupda bütün uşaqların zehni və əməli fəallıq göstərməsinə qayğı ilə yanaşılması, təlimin texniki vasitələri və müxtəlif resursların seçilməsi, onlardan istifadə olunması, didaktik prinsiplərə riayət edilməsi və s. daxildir.

İnkişafetdirici təlim prosesində məşğələyə verilən didaktik tələblər məşğələnin təşkili və keçirilməsində, onun məzmununun müəyyənləşdirilməsindən sonra aparıcı rol oynayır. Başlıca müddəaları əsas götürərək aşağıdakı pedaqoji tələblər irəli sürülür:

- təlim prosesində uşaqlarla səmərəli əks-əlaqənin təmin olunması, əməkdaşlıq şəraitində estetik-emosional mühitin yaradılması;
- tərbiyəçi-müəllimin uşaqları pedaqoji prosesin bərabərhüquqlu subyekti kimi qəbul etməsi;
- təlim metodları və üsulların optimal seçilməsi, onların uşaqların yaşına və dinamik inkişaf səviyyəsinə uyğunluğu, habelə sistemli şəkildə tətbiqi;
- hər bir uşağın fərdi psixoloji tədris-idrak və s. xüsusiyyətlərinin nəzərə alınması;
- məşğələdə təlimin inkişafetdirici aspektinin gücləndirilməsi, differensiallaşdırma və fərdiləşdirmə ilə uşaqlarda bilik, bacarıqların səviyyəsinin artırılması;
- uşaqların müstəqil fəaliyyəti, sərbəst rəy söyləmələri, başqasının, o cümlədən tərbiyəçinin fikrinə münasibət bildirmələri üçün əlverişli şəraitin yaradılması;
- uşaqlara “öyrənməyi öyrətmək” zəminində təlim vərdişlərinin aşılanması, müxtəlif məlumatların, biliklərin əldə edilməsi yollarının, mənbələrinin müstəqil tapılması;

- uşaqların milli dəyərlər zəminində, vətənpərvərlik ruhunda tərbiyələndirilməsində təlimin imkanlarından səmərəli istifadə olunması.

İnkişafetdirici təlim prosesində yeni pedaqoji təfəkkür baxımından təlimin səmərəli təşkili üçün yuxarıda göstərilən tələblərlə yanaşı, bir sıra prinsipləri də qeyd etmək olar:

- İnkişafetdirici təlim uşağın bu gün yaşadığı uşaqlıq dövrünü, gələcəkdə yeniyetməlik və gənclik illərinin maraqlı və məzmunlu qurulmasını təmin edir.
- İnkişafetdirici təlim əsas diqqəti uşaqların intellektual və yaradıcı inkişafına, məntiqi və mücərrəd təfəkkürün formalaşmasına, təhliletmə, əqli nəticə çıxarma, ümumiləşdirmə bacarığı və bu kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir; uşağın informasiya aləmində düzgün istiqamətlənməsini, onlardan səmərəli faydalanmasını və bu kimi məsələlərin həlli yollarının müəyyənləşdirilməsini təmin edir.
- İnkişafetdirici təlim pedaqoji prosesin "öyrənməyi öyrətmək" texnologiyası əsasında qurulmasını, uşağın təfəkkür imkanlarının maksimum dərəcədə nəzərə alınmasını, təlim-tərbiyə prosesinin isə onun üçün tədqiqatçılıq və araşdırma sahəsində təcrübə meydanına çevrilməsini tələb edir.

Didaktik tələblərin gözlənilməsi və onlara əməl olunması məşğələlərin daha səmərəli, daha canlı keçməsinə şərait yaradır.

Didaktik tələblərin nəzərə alınmasını asanlaşdıran əsas cəhətlərdən biri də məşğələlərin təşkilində təlim tipinin düzgün müəyyən edilməsidir. Didaktik tələblər baxımından məşğələdə yeni təlim metodlarının və texnologiyalarının müəyyənləşdirilməsi, onlardan seçərək səmərəli istifadə edilməsi də son dərəcə mühüm əhəmiyyət kəsb edir. Uşaqların zehni fəallığının inkişafını təmin etmək, onları düşünməyə, axtarışlar aparmağa, müəyyən problemin həllinə yaradıcılıqla yanaşmağa təşviq etmək baxımından yeni təlim metodları və texnologiyalarının əhəmiyyəti olduqca böyükdür.

İnkişafetdirici təlimdə əsas inkişaf istiqamətlərindən biri uşaqlarda həqiqi biliklər üzrə anlayışların formalaşmasıdır. Bu istiqamətlərin reallaşdırılması prosesində yaradıcı işlərə, həmçinin proqramlaşdırılmış tapşırıqların yerinə yetirilməsində müstəqil işlərə əhəmiyyətli yer verilir.

Hər hansı bir anlayışı uşaqlara izah etmək üçün aşağıdakı prinsiplər əsas götürülməlidir:

- **Təbiətəmüvafiqlik prinsipi** (Uşaq təbii imkanları nəzərə alınmaqla inkişaf etdirilməli, təkmilləşdirilməlidir).
- **Mədəniyyətəmüvafiqlik prinsipi** (İnsanın təbiətini nəzərə almağa, sosial təcrübəni tətbiq etməklə fəaliyyətin ümumi istiqamətini müəyyən etməyə imkan verir).
- **İnteqrasiya prinsipi**

Pedaqoji prosesdə inkişafetdirici təlimin müvəffəqiyyəti onun məqsədlərinin layihələndirilməsindən başlanır. Uşaqların təlim fəaliyyətinin intensivliyi onların nə dərəcədə konkret olmasından asılıdır. Məqsədlərin kifayət qədər dəqiq olmaması tərbiyəçi-müəllim və uşaq arasında soyuqluq yaradır, təlimin sönük və maraqsız keçməsinə səbəb olur. Müvəffəqiyyətli təlim fəaliyyətinin təşkilində düzgün qoyulmuş məqsəd müəyyənləşdirici əhəmiyyət daşıyır. Məqsəd bir qanun kimi insanın hərəkətlərinin üsullarını və xarakterini müəyyən edir. Məqsədlərin dərk edilməsi ona nail olmanın zəruri şərtidir. Təlimin intensivləşdirilməsi üçün təlim məqsədlərinin mürəkkəbliyinin yüksəldilməsinin böyük əhəmiyyəti vardır ki, bu da uşaqlardan fəal işləməyi tələb edir, təfəkkürünün, iradi sferasının, şəxsiyyətinin müxtəlif tərəflərinin və qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir. Məqsədə çatmağa intensiv yanaşmanın spesifikliyi də məhz bundadır. Təlimdə bu məqsədlərin bütün növləri tətbiq olunur. İnkişafetdirici təlimin ümumi məqsədlərini tərbiyəçi-müəllim konkret qrup şəraitindən asılı olaraq tətbiq edir. Bu, xüsusən boşluqların və çatışmazlıqların aradan qaldırılmasında daha əhəmiyyətlidir. Hər bir məqsədə konkret vəzifələr ayrılır. Təcrübədə isə məqsəd və vəzifələr çox vaxt eyni anlayış kimi qəbul edilir.

İnkişafetdirici təlimin tərbiyə vəzifələrinə dünya görüşünün, əxlaqi, əmək, estetik, fiziki keyfiyyətlərin aşılanması; təhsilverici vəzifələrinə bilik və bacarıqların formalaşdırılması; şəxsiyyətin inkişaf vəzifələrinə isə təfəkkürün, iradənin, emosiyaların, bacarıqların və s. inkişaf etdirilməsi aid edilir. Bütövlükdə, bu üç qrup təlim vəzifələri bir-biri ilə sıx əlaqədardır.

Müşahidələr göstərir ki, məktəbəqədər müəssisələrdə təlim-tərbiyənin səmərəli təşkilinə nail olunsa da, şəxsiyyətin inkişaf etdirilməsi ilə bağlı bir çox problemlər mövcuddur. Bəzi pedaqoqlar hesab edirlər ki, inkişaf təlim və tərbiyənin təsiri ilə reallaşır. Buna görə də inkişafın vəzifələri xüsusi qeyd olunmur. Deməli, didaktikada təlimin bu forması yalnız bilik və bacarıqları deyil, həm də şəxsiyyəti intensiv şəkildə inkişaf etdirir. Bu tip təlim şərti olaraq "inkişafetdirici təlim" adlandırılır. Öyrədici təlimin fəal xadimləri İ.Q.Pestalotsi, A.Disterverq, K.D.Uşinski və b. olmuşlar. Təlim və tərbiyə zamanı inkişafın vəzifələrinin ayrıca göstərilməsi şəxsiyyətin inkişafını pedaqoji prosesdə daha düzgün yönləndirməyə imkan verir.

Təlim vəzifələrini planlaşdırarkən yalnız məktəbəqədər təhsil müəssisəsinin ümumi tələbləri deyil, həm də müasir sosial-iqtisadi proseslərin təsiri ilə meydana çıxan aktual məsələləri də nəzərə almaq lazımdır.

Şəxsiyyətin inkişafı vəzifələri, əsasən, yeni tip təfəkkürün – dialektik, yaradıcı, novator təfəkkürün inkişafına daha çox diqqət yetirir. Bu, müvafiq şərait üçün mümkün variantların həllinin ən optimalını seçməyə imkan verir.

Təlimin intensivləşdirilməsi onun məqsədlərinin aşağıdakı tələblərə cavab

verməsini nəzərdə tutur:

1. Təlim məqsədləri uşaqların potensial imkanlarına yönəlmiş və onların yüksək fəallığını təmin edir.
2. Təlim məqsədlərinin prinsipial olaraq yerinə yetirilməsi üçün müəyyən səviyyədə olması zəruridir. Çünki real olmayan, mürəkkəb məqsədlər uşaqları qoyulmuş vəzifələrin həllindən uzaqlaşdırır.
3. Təlim məqsədlərinin uşaqlar tərəfindən dərk olunması vacibdir, əks halda onların fəaliyyətə başlaması üçün motiv olmur.
4. Təlim məqsədləri konkret, uşaq kollektivinin "yaxın inkişaf zonası"nda real təlim imkanlarını nəzərə alır.
5. Təlim məqsədlərinə nail olmaq üçün uşaqların şərait və imkanların dəyişməsi ilə əlaqədar olaraq çevik olması vacibdir.

İnkişafetdirici təlimin həyata keçirilməsi əhəmiyyətli dərəcədə uşaqların öyrənmə motivlərindən asılıdır. Öyrənmə motivasiyasının gücləndirilməsi təlimin səmərəliliyinin artırılmasının mühüm üsuludur.

Psixoloqlar müəyyənləşdirmişlər ki, motiv fəaliyyətin məqsədinə güclü təsir göstərdiyi üçün onun məqsədə doğru yönəlməsi müşahidə olunur. Buradan belə qənaətə gəlmək olar ki, öyrənmənin dərin motivasiyası, davamlı idraki maraqları, uşaqların təlimdəki müvəffəqiyyətləri üçün daha güclü olmalıdır.

Müşahidələrdən aydın olur ki, tərbiyəçi-müəllim mövzunun praktik əhəmiyyətini, onun müasir problemlərlə əlaqəsini ətraflı təhlil edərsə, bu, uşaqlarda öyrənməyə marağın əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olar. İdraki marağın stimullaşdırılmasının güclü vasitəsi təlim prosesində idraki inkişaf etdirən oyunlardır. Oyun prosesində, eyni zamanda uşaqda iradə, məsuliyyət hissi formalaşır. Heç bir məsləhət, nəsihət və hədə-qorxu həqiqi öyrənmə motivlərini yaratmır. Yalnız inandırma və arqumentlərin çatdırılması ilə buna nail olmaq olar.

İnkişafetdirici təlimi təmin etmək üçün yalnız məqsədləri mürəkkəbləşdirmək və motivasiyanı gücləndirmək kifayət deyil. Təlimin məzmununa müəyyən dəyişikliklər etmək zəruridir. Məzmunun ümumi obrazının mənimsənilməsi üçün təlim materialı əvvəlcə ümumi, geniş şərh kimi verilir, sonra isə onun tərkib hissələri təhlil olunur.

Təlimin məzmununun informativ həcminin müəyyənləşdirilməsi meyarları aşağıdakılardır:

- uşaqların yaş, psixoloji və fizioloji imkanına uyğunluğu;
- verilən vaxtın nəzərə alınması, beynəlxalq təcrübə, təlim materialları bazasının olması və başqa təlim şərtləri kimi kriteriyalara uyğun bilik, bacarıq və vərdişlərin ciddi seçiminin aparılması;
- əsas anlayışların, bacarıq və vərdişlərin öyrədilməsi üzrə işin aparılmasına tərbiyəçi-müəllimlərin diqqətinin yönəldilməsi və təlim materialı izah

edilərkən əsas məsələnin uşaqlara dəqiq çatdırılması.

Yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlim mühitində təhsilin məzmununun və strukturunun təkmilləşdirilməsinin əsas istiqamətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

a) məzmunun üç əsas funksiyasına – təhsil, tərbiyə və inkişafın kompleks həyata keçirilməsinə istiqaməti gücləndirmək;
b) müvafiqliyi saxlamaqla hər bir məşğələnin informativ tutumunu yüksəltmək;
c) materialın bölmələrlə verilməsi, təlim prosesində ümumiləşdirmələrin rolunu artırmaq, ümumiləşdirici məşğələlərin keçirilməsi;
d) məşğələlərarası əlaqənin gücləndirilməsi;
e) oyun və tapşırıq seçmini yerinə yetirməklə daha çox inkişafetdirici məsələlərin həll edilməsi;
f) təlim prosesində alqoritmik göstərişlərin tətbiqi;
g) İKT-nin təchizatı;
h) təlim bacarıqlarının və vərdişlərinin formalaşdırılması.

İnkişafetdirici təlimin tətbiqində idrak fəallığını, öyrənməni stimullaşdıran metod və priyomların, məşğələlərin təşkili formalarının, səmərəli tətbiqinin böyük əhəmiyyəti vardır. Hər hansı problemin həllinə yönəlmiş tələbatın ödənilməsində, idrak proseslərinin fəallaşdırılmasında söhbətlərin, disskusiyaların, tədqiqatçılığın, rollu oyunların və uşaqların müstəqil işinin rolu əvəzsizdir.

Təlimin inkişafetdirici funksiyasını gücləndirmək üçün yalnız nəzarət tempi deyil, həm də onun təhlili vacibdir. Tərbiyəçi-müəllimin yalnız uşaqların bilik və bacarıqlarında olan çatışmazlığı deyil, onları törədən səbəbləri də bilməsi işin gedişinə müsbət təsir göstərir. Bu səbəblər sağlamlıqdakı problemlərlə, şəxsiyyətin tərbiyəsindəki nöqsanlarla, ailə daxilindəki münaqişələrlə və evdəki şəraitlə, həmçinin fərdi yanaşmanın olmaması ilə əlaqədar olur. Uşaqların inkişafındakı geriliyin səbəbləri haqqında qiymətli informasiyaları tərbiyəçi-müəllimlərin, bütün valideyn və həkimin iştirakı ilə keçirilən “pedaqoji konsiliumlar”dan bilmək olar. Bu, formalizmin aradan qaldırılmasına səbəb olur.

İnkişafetdirici təlimin dərin təhlili tərbiyəçi-müəllimdən uşaqların real təlim imkanlarının yaxşı araşdırılmasını, inkişaf perspektivini, hər birinin “yaxın inkişaf zonasını” bilməyi tələb edir.

Tərbiyəçi-müəllim uşaqların bilik səviyyələrini öyrənərkən aşağıdakı didaktik tələblərə əsaslanır:

- biliyin dolğunluğu;
- biliyin möhkəmliyi;
- biliyin sistemliliyi və ardıcıllığı;
- biliyin şüurluluğu;

- biliyin anlaşıqlı olması;
- biliyin tətbiqi;
- biliyin proqram tələblərinə uyğunluğu.

Həyati bacarıqlara malik şəxsiyyət yetişdirmək üçün uşaqlarda həyata, ətraf aləmə, insanlara fəlsəfi münasibət formalaşdırılmalı, elə inam təlqin edilməlidir ki, onlar kobud səhvlərdən, düşünülməmiş hərəkətlərdən və qərarlardan uzaq olmağı bacarsınlar. Diqqət, əsasən, emosional-iradi sferaya, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasına, həyati bacarıq və vərdişlərə yetirilir ki, çətinliklərin aradan qaldırılmasında, sosiuma uyğunlaşmaqda onlara kömək olsun. Təlim və tərbiyə işlərinin səmərəli təşkili sadalanan bu keyfiyyətlərin uşaqların həyatında öz yerini tapmasına və erkən yaş dövründə öyrəndikləri ilkin həyati bacarıq və vərdişlərin gələcək həyat fəaliyyətində düzgün reallaşdırmasına xidmət edir.

Müasir tərbiyəçi-müəllimin qarşısında duran vəzifələrdən biri də qabaqlayıcı elmi proqnozlaşdırmaqdır ki, bu prosesdə uşaq müstəqil və məsuliyyətli şəxsiyyət olaraq xarici təsirləri, maneələri aradan qaldırır və fəaliyyət zamanı dünyada baş verən proseslərə inteqrasiya edir.

Müasir məktəbəqədər təhsil müəssisələrində təlimin müxtəlif növləri – məşğələlər, ekskursiyalar, gəzintilər, diskussiyalar, söhbətlər, məşğələdənkənar fəaliyyətlər icra edilir. Bu mərhələdə təlim formalarının təkmilləşdirilməsinin səciyyəvi xüsusiyyəti müəyyən mövzunun öyrədilməsində tərbiyəçi-müəllimlərin müxtəlif məşğələ növlərini tətbiq etmələrinə səy göstərməsidir.

Təlim-tərbiyə vəzifələrini yalnız metodlar birləşməsi ilə deyil, həm də təlim prosesinin təşkilati formaları ilə həll etmək imkanları pedaqogikada qanunauyğun müəyyən edilmişdir. Bununla yanaşı müasir didaktika təlimin təşkili formalarını fasiləsiz olaraq yeniləməyi, ümumi tərbiyəyə yeni yanaşmaların daxil edilməsini tövsiyə edir. Uşaqlarla söhbətlərin, görüşlərin, diskussiyaların daha geniş müstəvidə təşkil olunması onların inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Söhbətlərin təşkil olunması məşğələnin elə formasıdır ki, bu prosesdə məşğələ və ya məşğələdənkənar hər hansı bir məsələ üzərində müzakirə və sərbəst fikir mübadiləsi aparılır. Bir çox hallarda söhbətlər əvvəl öyrənilmiş biliklərin ümumiləşdirilməsinə və sistemləşdirilməsinə, onların həyati faktlarla əlaqələndirilməsinin müəyyənləşdirilməsinə həsr edilir.

İdraki fəaliyyətin təşkili prosesində interaktiv metodlardan istifadə, nəinki yeni biliklərin əldə edilməsinə, həmçinin kommunikativ bacarıqların (başqalarının fikrini dinləmək, müxtəlif yanaşmaları qiymətləndirmək, müzakirələrdə iştirak etmək, problemləri birgə həll etmək və nəticə çıxarmaq) inkişafına da təsir göstərir.

İnteraktiv iş formaları tərbiyəvi əhəmiyyət daşıyaraq, uşaqların qruplarda birgə əməkdaşlıq şəraitində çalışmasına, uşaqlar arasında emosional münasibətlərin

yaranmasına müsbət təsir göstərir, əsəb gərginliyini aradan qaldırır, onlara müdafiə olunmaq, bir-birini başa düşmək və şəxsi müvəffəqiyyət qazanmaq hissini keçirməyə kömək edir.

İnkişafetdirici təlimin səmərəli təşkilində uşaqların idraki proses zamanı praktik olaraq iştirakını təmin etmək və bu zaman tərbiyəçinin verilən tələblərə düzgün əməl etməsi böyük əhəmiyyət daşıyır.

Müasir dünyada həyatın bütün sahələrində olduğu kimi, təhsildə də əhəmiyyətli dəyişikliklər baş verir. Bu, insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun çevik reaksiya vermək, yeni şəraitdə tez bir zamanda özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri üzə çıxarmaq üçün vacibdir. Bununla əlaqədar tədris müəssisələri sosial dəyişikliklərdən asılı olmadan, sosial inkişafa uyğun, analitik müstəqillik və təşəbbüs göstərməyə qadir yaradıcı şəxsiyyətin formalaşdırılmasını nəzərdə tutur. Bu cür şəxsiyyəti yalnız yaradıcı pedaqoq tərbiyə edə bilər. Tədris müəssisələrinin təcrübəsini yenilikçi tərbiyəçi-müəllim fəal şəkildə təmin edir. Cəmiyyət kütləvi innovasiya hərəkatını yaradıcılığın yüksək səviyyəsi kimi dəstəkləməyə daha çox meyl edir.

## Nəticə / Conclusion

Qeyd olunanlardan belə nəticə hasil olur ki, hazırda inkişafetdirici təlim prosesində məşğələnin təşkilinin didaktik tələblər baxımından təkmilləşdirilməsinə ehtiyac vardır. Məşğələnin təşkilinə verilən didaktik, pedaqoji-psixoloji tələblərin nəzərə alınması, yeni yanaşmaların tətbiq edilməsi inkişafetdirici təlim prosesində daha yüksək nailiyyətlərin əldə olumasına imkan yaradar.

Beləliklə, inkişafetdirici təlimin didaktik əsaslarına didaktikanın prinsip və tələblərinə müvafiq yeni təlim metod və texnologiyalarından istifadə, təlimin təşkili formalarının seçilməsi, məşğələ prosesində bütün uşaqların zehni və əməli fəallıq göstərməsinə bərabər imkanların yaradılması, müxtəlif əyani və texniki vasitələrdən istifadə daxildir.

Didaktik əsaslar təlim texnologiyalarından istifadənin mərkəzində dayanır. Məşğələnin quruluşu və məşğələyə verilən müasir tələblər haqqında danışarkən bu məsələlərə həm ənənəvi, həm də müasir təlim metodları nöqteyi-nəzərindən yanaşmaqla müqayisələr aparılır, klassik, həmçinin yeni metod və texnologiyaların üstün cəhətləri izah edilir.

Yeni elmi nəzəriyyələrin klassik müddəalara qarşı qoyulması inkişaf dinamikası nöqteyi-nəzərindən düzgün deyil və pedaqoji baxımdan da özünü doğrultmur. Çünki yeni nəzəriyyələr yaranarkən elmin inkişafı prosesində aşkar olunmuş və qəbul edilmiş faktlara və anlayışlara tabe olan köhnə ideyalar və materiallar qorunub saxlanılır. Ənənəvi nəzəriyyələrdən real vəziyyətə uyğun ol-

mayan materiallar çıxarılır.

Təlim metodları müasir tələblərə uyğun qurulur. Yeni təlim metod və texnologiyalarının tətbiqi elmi-nəzəri əsaslara (prinsiplərə, pedaqoji-psixoloji, sosioloji, didaktik və s. tələblərə) söykənərək həyata keçirildikdə elmi mahiyyət kəsb edir və elmi zənginləşməyə çevrilir.

- ***Müxtəlif üsullar.*** Oyunlar, rol canlandırma, qrupa əsaslanan layihələr və multimedia resurslarının istifadəsi dinləyib-anlamanı həm əyləncəli, həm də effektiv edir.
- ***Aktiv dinləmə təşviqi.*** Şagirdlərə diqqətlə qulaq asmağın və qarşı tərəfin fikirlərini təkrar etməklə başa düşdüklərini göstərməyin əhəmiyyəti öyrədilməlidir.
- ***Müzakirələr və dialoqlar.*** Müəllimlər dərslərdə açıq müzakirələrə və sual-cavablara yer verərək şagirdlərin bu bacarıqlarını gücləndirə bilərlər.
- ***Hekayələr və mətnlər.*** Şagirdlərə dinləmə üzrə hekayələr və mətnlər təqdim edərək onların məzmunu başa düşmə səviyyəsini yoxlamaq olar.
- ***Qrup işləri.*** Şagirdlər qrup şəklində fəaliyyət göstərərək bir-birini dinləməyi və qarşılıqlı anlaşmanı öyrənirlər [Zeynalova, R., 2025].

Dinləyib-anlama bacarığı müasir təhsildə artıq bir seçim deyil, zərurətdir. Şagirdlərdə bu bacarığın inkişafı onların dərs prosesində daha fəal iştirakını təmin edir, həmçinin gələcək karyeralarına və həyatlarına müsbət təsir göstərir. Müəllimlər və valideynlər bu istiqamətdə məqsədli fəaliyyət göstərərək, şagirdlərin daha yaxşı öyrənməsinə və həyatda uğurlu fərdlər kimi yetişməsinə kömək edə bilərlər.

Dinləyib-anlama bacarığı oxu və yazı kimi şagirdlərin təhsil və sosial həyatında böyük əhəmiyyət daşıyır. Bu bacarıq yalnız şifahi ünsiyyətin deyil, həm də ümumi öyrənmə prosesinin təməl elementidir [Əhmədov, A., 2018]. Dinləyib-anlama bacarığı şagirdlərin həm akademik, həm də sosial mühitdə müvəffəqiyyət qazanmasına təsir edir. Müəllimlər və valideynlər bu bacarığın inkişafı üçün əlverişli təlim mühiti yaratmalı, şagirdlərin diqqətini fəal dinləmənin əhəmiyyətinə yönəltməli və onlara dəstək olmalıdırlar. Şagirdlərdə formalaşan bu bacarıq yalnız dərs zamanı deyil, həm də gələcəkdə onların peşəkar fəaliyyətində və şəxsi münasibətlərində əhəmiyyətli rol oynayacaq.

Dinləyib-anlama bacarığını formalaşdırmaq üçün şagirdlərdə diqqəti, səbri və aktiv iştirak vərdişlərini inkişaf etdirmək lazımdır. Bunun üçün müəllimlər və valideynlər müxtəlif metod və yanaşmalardan istifadə edə bilərlər.

***1. Dinləməyə şərait yaratmaq***

- *Müxtəlif materialların təqdim olunması:* maraqlı hekayələr, səsli mətnlər və ya audio kitablar şagirdlərin dinləmə marağını artırır.
- Qısa və aydın məlumat verin: şagirdlərə uzun və mürəkkəb izahatlar əvəzinə qısa, lakin məzmunlu məlumatlar təqdim edin.

***2. Aktiv dinləmə üzərində işləmək***

- *Məqsədli dinləmə tapşırıqları:* şagirdlərdən müəyyən məlumatlara diqqət yetirmələrini və sonra onları təkrarlamalarını istəyin. Məsələn, qısa mətn oxuyub onun məzmununu soruşun.
- *Sual-cavab məşqləri:* dinlədikləri bir məzmun haqqında suallar verərək onların diqqətini və anlama səviyyəsini yoxlayın.
- *Rollu oyunlar:* şagirdlərə müxtəlif rollar verərək qarşılıqlı dialoq qurmağı və diqqətlə bir-birini dinləməyi öyrədin.

***3. Dinləyicini maraqlandırmaq***

- *Hekayə anlatma:* şagirdlərin yaş səviyyəsinə uyğun, maraqlı hekayələr danışaraq onların diqqətini cəlb edin.
- Musiqi və sənət fəaliyyətləri: musiqi dinləmə və ya teatr məşğələləri vasitəsilə şagirdlərin dinləmə bacarığını inkişaf etdirin.
- Qısa videolar: tədrisə uyğun maraqlı videolar təqdim edərək onların əsas məqamları anlamağa çalışmasını istəyin.

***4. Dinləməni qiymətləndirmək və gücləndirmək***

- *Qrup müzakirələri:* şagirdlərdən eşitdiklərini müzakirə etməyi və fikir mübadiləsi aparmağı tələb edin.
- *Məlumatı təkrarlama:* şagirdlərə bir mövzu haqqında məlumat verin və sonra onların bunu necə başa düşdüklərini izah etməsini xahiş edin.
- *Dəqiq tapşırıqlar:* şagirdlərə dinlədikləri məzmun əsasında müəyyən bir problemi həll etməyi və ya tapşırıq yerinə yetirməyi tapşırın [Altunkaya, H., 2021].

***5. Məişət mühitində dinləmənin inkişafı***

- *Valideynlərlə ünsiyyət:* valideynlər uşaqlarını dinləməyə həvəsləndirməli, onların danışdıqlarını diqqətlə dinləməli və müsbət qiymətləndirməlidirlər.
- *Söhbətlər:* uşaqlarla gündəlik həyat hadisələri haqqında söhbətlər apararaq onları danışmağa və dinləməyə cəlb edin [Uzdu, A., 2024].

Dinləyib-anlama bacarığı məqsədli təcrübə və təlimlə inkişaf edir. Şagirdlərdə dinləmək üçün motivasiya yaratmaq, onları müntəzəm məşqlərə cəlb etmək və bu prosesdə səbrli olmaq mühüm şərtlərdir. Müəllim və valideynlərin birgə səyləri ilə bu bacarıq uğurla formalaşdırıla bilər. Dinləyib-anlama bacarığı körpəlikdən başlayaraq uşağın bütün inkişaf mərhələlərində tədricən formalaşır və möhkəmlənir. Bu bacarığı inkişaf etdirməyə erkən yaşlardan başlamaq daha səmərəlidir, çünki uşaq beyninin ən sürətli inkişafı 0-6 yaş arasında baş verir.

Bununla belə, müxtəlif yaş mərhələlərində fərqli yanaşmalar tətbiq edilə bilər:

**0 – 3 yaş (erkən yaş dövrü)**

- *Formalaşma başlanğıcı.* Körpələr artıq doğuşdan səs və danışıq fərqlərini seçməyə başlayırlar. Danışmaq, mahnılar oxumaq və müxtəlif səsləri tanıtmaq körpələrin dinləmə bacarıqlarını inkişaf etdirir [Məktəbəqədər təhsil proqramı (kurikulum)., 2022].
- *Valideynlə ünsiyyət.* Ailə üzvlərinin danışıqlarını diqqətlə dinləmək onlarda dil öyrənmənin əsasını qoyur. Körpələrlə sadə və aydın sözlərlə danışmaq tövsiyə olunur.

**3 – 6 yaş (məktəbəqədər dövr)**

- *Aktiv inkişaf mərhələsi.* Bu yaşda uşaqların diqqəti daha uzun müddət davam edir və onlar daha mürəkkəb hekayələri dinləyib anlamağa başlayırlar.
- *Tapşırıqlar.* Sadə hekayələr oxuyub onların suallara cavab verməsini istəyin və ya dinlədiklərini təkrar danışmağı təşviq edin.
- *Oyunlarla təlim.* Oyunlar və fəaliyyətlər vasitəsilə dinləmə qabiliyyətlərini inkişaf etdirmək mümkündür [Əfəndiyeva, Ü., 2022].

**6 – 12 yaş (ilk məktəb illəri)**

- *Daha mürəkkəb anlayış.* Bu yaşda uşaqlar artıq uzun müddət diqqətini cəmləşdirə bilir və dinlədikləri məlumatı təhlil etməyi öyrənirlər.
- *Dinləmə və müzakirə.* Müəllimlər və valideynlər şagirdlərə dərs, video və ya hekayə dinlətdikdən sonra müzakirə etməyi və ya əsas məqamları qeyd etməyi öyrətməlidirlər.

**12+ yaş (yeniyetmə dövrü)**

- *Tənqidi düşüncə.* Yeniyetmələr dinlədikləri məlumatları tənqidi qiymətləndirmək, fərqli baxışları anlamaq və öz fikirlərini formalaşdırmaq qabiliyyətinə malikdirlər [Pedaqogika dərslik., 2021].
- *Diskussiyalar.* Mürəkkəb mövzular üzərində müzakirələr apararaq onların dərin dinləmə və təhlil bacarıqlarını inkişaf etdirmək olar.

Dinləyib-anlama bacarığını inkişaf etdirməyə körpəlikdən başlamaq daha səmərəlidir. Lakin hər yaş mərhələsində uyğun yanaşmalar tətbiq etməklə bu qabiliyyəti gücləndirmək mümkündür. Vacib olan, bu prosesin davamlı və məqsədyönlü şəkildə aparılmasıdır.

## Nəticə / Conclusion

Dinləyib-anlama bacarığı müasir təhsildə və həyatda uğurun əsas şərtlərindən biri kimi çıxış edir. Bu bacarıq yalnız məlumat əldə etmək üçün deyil, həm də şagirdlərin ünsiyyət qurmaq, əməkdaşlıq etmək və problemləri həll etmək kimi digər vacib bacarıqlarını formalaşdırmaq üçün zəruridir. XXI əsrin təhsil yanaşmaları şagirdlərin sadəcə bilik toplamaqla kifayətlənməsini deyil, dinləmə, başa düşmə və analitik düşünmə bacarıqlarını inkişaf etdirməsini tələb edir.

Dinləyib-anlama bacarığının inkişafı erkən yaşlardan başlayaraq davamlı şəkildə dəstəklənməlidir. Körpəlikdən etibarən uşaqlara səslər, musiqi, sadə hekayələr və nitq vasitəsilə dinləmə vərdişləri aşılana bilər. Məktəbəqədər və ibtidai siniflərdə bu proses daha məqsədyönlü şəkildə davam etdirilir və qrup işləri, oyunlar, hekayə dinləmə, müzakirələr kimi metodlarla möhkəmləndirilir. Yeniyetməlik dövründə isə tənqidi düşüncə və dərin analiz tələb edən tapşırıqlar dinləyib-anlama bacarığının inkişaf etdirilməsinə xidmət edir.

Müasir texnologiyalar – rəqəmsal resurslar, səsli dərsliklər, video məzmunlar və podkastlar dinləmə prosesini, eyni zamanda xarici dillərin öyrənilməsini daha praktik, maraqlı və təsirli edir [Girginer, N., Öznul, E.A., 2004].

Aparılan təhlillər göstərir ki, dinləyib-anlama bacarığı yalnız şagirdlərin təhsil mühitində müvəffəqiyyət qazanması üçün deyil, həm də onların gələcək sosial və peşəkar həyatında uğur əldə etməsi üçün əsasdır. Bu bacarığı inkişaf etdirmək üçün müəllimlər və valideynlər birgə fəaliyyət göstərməli, dinləməni dəstəkləyən mühit yaratmalı və şagirdləri daim həvəsləndirməlidirlər. Təhsil prosesində dinləmə bacarığına verilən diqqət, cəmiyyətin daha savadlı, empatiyalı və düşüncəli fərdlər yetişdirməsinə töhfə verəcəkdir.

**Məqalənin aktuallığı.** Bu məqalə müasir təhsil sistemində dinləyib anlama bacarığının artan əhəmiyyətini və şagirdlərin inkişafı üçün zəruriliyini vurğulamaq baxımından çox aktualdır. XXI əsr təhsil yanaşmaları şagirdlərin kritik düşünmə, kommunikasiya və əməkdaşlıq kimi əsas bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Bu kontekstdə dinləyib anlama bacarığı sadəcə bir ünsiyyət vasitəsi deyil, həm də informasiya qəbulunun, problemlərin həllinin və yaradıcı düşüncənin təməl daşıdır. Aktuallığın əsas səbəblərindən biri, təhsildə texnologiyanın sürətli inkişafıdır. Rəqəmsal vasitələrin tədris prosesində geniş istifadəsi, xüsusilə xarici dil öyrənmə zamanı şagirdlərin dinləyib anlama qabiliyyətini daha da ön plana çıxarır.

**Məqalənin elmi yeniliyi.** Məqalə dinləyib-anlama bacarığının müasir təhsildə əhəmiyyətini təhlil edərək, onun inkişafına dair yeni yanaşma və strategiyaları təklif edir. Məqalənin elmi yeniliyi aşağıdakı aspektlərdə özünü göstərir:

- ✓ Məqalədə multidisiplinar bacarığın təhsil prosesi ilə yanaşı, sosial, emosional və tənqidi düşüncə sahələrində də mühüm rol oynadığı vurğulanır.
- ✓ Məqalədə dinləyib anlama bacarığının inkişafının müxtəlif yaş dövrləri üzrə (körpəlikdən yeniyetməlik dövrünə qədər) mərhələli şəkildə təsviri verilərək, hər yaş qrupu üçün fərqli metodlar və strategiyalar tətbiq etməyi tövsiyə edir.
- ✓ Məqalədə rəqəmsal vasitələrin dinləyib anlama bacarığını inkişaf etdirməkdə effektiv vasitə kimi təqdim olunması yenilikçi yanaşmadır. Bu, xüsusilə texnologiyanın təhsildə geniş tətbiq olunduğu müasir dövr üçün aktualdır.
- ✓ Məqalədə dinləmə bacarığının tənqidi düşüncənin və analitik yanaşmanın inkişafı ilə sıx bağlı olduğu, yalnız akademik mühitdə deyil, həmçinin peşəkar və sosial həyatda uğurun əsası kimi təqdim olunması, bu prosesdə valideynlərin və müəllimlərin ortaq məsuliyyət daşıdığı vurğulanır. Bu yanaşma şagirdlərin inkişafında ailə və məktəb mühitinin birgə rolunu əks etdirir. Ümumilikdə, məqalə dinləyib-anlama bacarığına dair təhsil yanaşmaların zənginləşdirərək, mövcud bilikləri genişləndirir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə dinləyib-anlama bacarığının təhsildəki rolu və inkişafına dair müasir yanaşmaları işıqlandıraraq müəllimlər, valideynlər və təhsil mütəxəssisləri üçün konkret praktik həll və təkliflər təqdim edir. Bu bacarığın formalaşdırılması yalnız nəzəri biliklərlə məhdudlaşmır, eyni zamanda onu real tədris prosesində tətbiq etmək üçün geniş imkanlar yaradır. Məqalə təhsil mütəxəssisləri, valideynlər və müəllimlər üçün dinləyib-anlama bacarığının inkişafı ilə bağlı praktik tövsiyələr təqdim edərək, bu sahədə real tətbiq oluna bilən yanaşmaları əhatə edir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Əfəndiyeva, Ü. (2025). İnteraktiv oyunların nitq inkişafında rolu. Gənc Ailə. https://gencaile.az/interaktiv-oyunlarin-nitq-inkisafindaki-rolu/
2. Əhmədov, A. (2018). Uşaqların inkişafında valideynlərlə birgə işin yolları. Elmi Əsər BQU. https://www.anl.az/down/meqale/elmi_eser_bqu/2018/2/30(meqale).pdf
3. Əliyev, P. (2022). Yazı müasir təhsildə problem kimi. Azərbaycan dili və ədəbiyyat tədrisi. https://www.anl.az/down/meqale/azdili_edebiyyat_tedrisi/2022/04/03(meqale).pdf
4. Əliyeva, S. (2023). Şagirdlərdə oxuyub-anlama bacarığı nə üçün vacibdir? AzEdu. https://azedu.az/az/news/68667-sagirdlere-oxuyub-anlama-bacariqlarine-ucun-vacibdir-serh

5. Nəhmətova, K.A. (2020). Yazı işinin təşkili metodikası. Bakı. https://www.tipii.edu.az/nodupload/editor/files/K%C4%B0TAB%20-%20MV.pdf
6. Pedaqogika dərslik. (2021). Pedaqogikada yaş dövrləri və onların pedaqoji-psixoloji xüsusiyyətləri. https://anl.az/el/kitab2022/03/cd/788013.pdf
7. Məktəbəqədər təhsil proqramı (kurikulum). (2022). Bakı, Təhsil Nazirliyi.
8. Yusifov, M. (2019). Nitq mədəniyyəti. Elm və Təhsil. https://anl.az/el/Kitab/2020/06/cd/Ar2019-1287.pdf
9. Zeynalova, R. (2025). Dinləmə bacarıqlarının inkişaf etdirilməsi yolları. ResearchGate. https://www.researchgate.net/publication/389512094_Dinlm_bacariginin_inkisaf_etdirilmsi_yollari
10. Altunkaya, H. (2021). Dinleme-izleme eğitimi: Dinleme türleri. ResearchGate. https://www.researchgate.net/publication/348630818_Dinleme_-_Izleme_Egitimi_-_DINLEME_TURLERI
11. Güneş, F. (2013). Anlama modelleri. Ankara Universiteti. https://acikders.ankara.edu.tr/pluginfile.php/118928/mod_resource/content/0/Anlama%20Modelleri.pdf
12. Uzdu, A. (2024). Çocuklarda iletişim becerileri. Rehber Öğretmen / Psikolojik Danışman. https://kayapinarram.meb.k12.tr/meb_iys_dosyalar/21/16/971703/dosyalar/2024_01/09134738_cocuklardailetisibec3.pdf
13. Brown, H.D. (2007). Teaching by principles: An interactive approach to language pedagogy (p. 117). Pearson Education. https://octovany.wordpress.com/wp-content/uploads/2013/12/ok-teaching-by-principles-h-douglas-brown.pdf
14. Rohdearni, W. S., Erikson, S., Elina, L.B., (2023). International Journal of Education and Learning. Correlating EFL learners' critical thinking ability and listening comprehension strategies. International Journal of Education and Learning, 5(1), 23–33. https://www.researchgate.net/publication/379041021_Correlating_EFL_learners'_critical_thinking_ability_and_listening_comprehension_strategies
15. Girginer, N., Öznul, E.A., (2004). The Turkish Online Journal of Educational Technology – TOJET. Uzaktan eğitimde teknoloji seçimi. TOJET, 3(3), Məqalə 19. https://tojet.net/articles/v3i3/3319.pdf

# THE ROLE OF POETRY MEMORIZATION IN THE DEVELOPMENT OF AUDITORY MEMORY IN YOUNG CHILDREN WITH INTELLECTUAL DISABILITIES

**Gunel Ahmadova**

Doctoral Student, Institute of Education of the Republic of Azerbaijan
E-mail: gunelahmedova@yandex.ru
https://orcid.org/0009-0008-0663-3737

**Abstract.** This article presents a structured poetry memorization program developed for the diagnosis, analysis, and correction of auditory memory in children with intellectual disabilities. Auditory memory plays a crucial role in the development of speech skills, mastery of the curriculum, and the enhancement of other cognitive functions. Poetry memorization can serve as an effective tool for children with intellectual disabilities, supporting auditory memory development and improving the ability to perceive and retain spoken information. The mechanism behind learning poetry lies in its rhythmic and rhymed structure, which facilitates information processing and retention. Memorizing poems not only strengthens memory but also activates additional neuropsychological processes, such as attention, phonemic perception, and motor skills. The study involved 50 children aged 6 to 10 with intellectual disabilities, divided into an observation group (25 children) and an experimental group (25 children). Auditory memory was assessed before and after the experiment, and the analysis of results is presented in this article.
**Keywords:** children with intellectual disabilities, auditory memory, poetry memorization method, diagnostic methods, corrective work.

**DOI:** 10.30546/2709-2488.3.2025.0101
**To cite this article:** Ahmadova G. (2025). The role of poetry memorization in the development of auditory memory in young children with intellectual disabilities. *Journal of Preschool and Primary Education*, Vol. 252, Issue III, pp. 53-64.
**Article history:** received – 21.07.2025; accepted – 28.08.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# İNTELLEKTUAL İNKİŞAF POZUNTUSU OLAN KİÇİK YAŞLI UŞAQLARDA EŞİTMƏ YADDAŞININ FORMALAŞMASINDA ŞEİR ƏZBƏRLƏMƏNİN ROLU

**Günel Əhmədova**

Azərbaycan Respublikasının Təhsil İnstitutunun dissertantı
E-mail: gunelahmedova@yandex.ru
https://orcid.org/0009-0008-0663-3737

**Annotasiya.** Məqalədə intellektual inkişaf pozuntusu olan uşaqların eşitmə yaddaşının diaqnostikası, təhlili və korreksiyası məqsədilə strukturlaşdırılmış şeir əzbərləmə proqramı tərtib edilmişdir. Eşitmə yaddaşı nitq bacarıqlarının formalaşmasında, tədris proqramının mənimsənilməsində və digər idraki funksiyaların inkişafında vacib rol oynayır. İntellektual inkişaf pozuntusu olan uşaqlarda şeir əzbərləmə-eşitmə yaddaşının inkişafına kömək edən, səsli informasiyanı qavrama və yadda saxlamanı yaxşılaşdıran təsirli bir vasitə ola bilər. Şeir öyrənmənin iş mexanizmi, onun ritmik və qafiyəli quruluşunda gizlidir; bu xüsusiyyətlər məlumatı qəbul etməyi və yadda saxlamağı asanlaşdırır. Şeirlərin əzbərlənilməsi təkcə yaddaşı gücləndirmir, həm də diqqət, fonematik qavrayış və motor bacarıqları kimi əlavə neyropsixoloji prosesləri aktivləşdirir. Tədqiqatda 6–10 yaş arası intellektual problemli 50 uşaq iştirak etmiş, onlardan 25 nəfəri müşahidə qrupunda, 25 nəfəri isə eksperimental qrupda yer almışdır. Eksperimentdən əvvəl və sonra eşitmə yaddaşının diaqnostikası aparılmış və nəticələrin təhlili məqalədə öz əksini tapmışdır.
**Açar sözlər:** intellektual inkişaf pozuntusu olan uşaqlar, eşitmə yaddaşı, şeir əzbərləmə metodu, diaqnostika metodları, korreksiyaedici iş.

**DOI:** 10.30546/2709-2488.3.2025.0101
**Məqaləyə istinad:** Əhmədova G. (2025). İntellektual inkişaf pozuntusu olan kiçik yaşlı uşaqlarda eşitmə yaddaşının formalaşmasında şeir əzbərləmənin rolu. «*Məktəbəqədər və ibtidai təhsil*», № 3 (252), səh. 53-64.
**Məqalə tarixçəsi:** göndərilib – 21.07.2025; qəbul edilib – 28.08.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən, intellektual pozulma dünya əhalisinin təxminən 1–3%-ni təşkil edir (WHO, 2019). Bu, intellektual inkişafın müxtəlif səviyyələrində gecikmə və ya zəifləmə deməkdir. İntellektual inkişafında gerilik olan uşaqlar akademik nailiyyətlərlə yanaşı, sosial ünsiyyət və qarşılıqlı münasibətlər daxil olmaqla gündəlik həyatın müxtəlif sahələrində çətinliklərlə qarşılaşırlar [Schalock, R. et al. 2010]. Xüsusi pedaqogika elmi intellektual inkişaf pozuntusu olan uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi və onların sosial adaptasiyasının təmin edilməsi yollarını araşdırır [Hüseynova, N., Məlikov, M., 2018].

İntellektual inkişaf pozuntusu olan uşaqlarda müşahidə olunan, geniş yayılmış və əhəmiyyətli koqnitiv defisitlərdən biri eşitmə yaddaşının pozulmasıdır [Alloway, T. et al. 2016]. Nitq inkişafı, oxu bacarıqlarının mənimsənilməsi, şifahi təlimatların qavranılması və təlim fəaliyyətində uğurla iştirak etmək üçün eşitmə yaddaşının əhəmiyyəti çox vacibdir [Baddeley, A.D., 2003]. Eşitmə yaddaşının inkişafdan geri qalması intellektual problemli uşaqların öyrənmək, ünsiyyət qurmaq və ətraf mühitə uyğunlaşmaq bacarığını əhəmiyyətli dərəcədə çətinləşdirir [Koppenhaver, D. et al. 2000].

Mövcud korreksiyaedici metodlar – təkrarlamalar, "vizual dərslik" strategiyaları və tədris materialları intellektual inkişafa uyğunlaşdırılsa da, bu kateqoriyadan olan uşaqların eşitmə yaddaşının inkişaf etdirilməsi üçün innovativ və effektiv yanaşmaların araşdırılması aktual bir vəzifə olaraq qalmaqdadır [Hodapp, R.M., Fidler, D.J., 1999].

Xüsusi psixologiyanın müasir yanaşmalarında yaddaş, diqqət və təfəkkür proseslərinin inkişafı intellektual çətinlikləri olan uşaqlarda xüsusi korreksiyaedici metodlarla tədqiq edilir [Hüseynova, N., Aslanova, S., 2018].

Son illərdə qayğıya xüsusi ehtiyacı olan uşaqların reabilitasiyasında musiqi və ritmik müdaxilələrin istifadəsinə artan maraq müşahidə olunur [Thaut, M.N., Gardiner, M.F., Holmberg, D., 2014]. Musiqi – ritm, melodiya və quruluşu ilə beynin müxtəlif sahələrini stimullaşdıra və yaddaş da daxil olmaqla digər koqnitiv funksiyaları yaxşılaşdıra bilən unikal xüsusiyyətlərə malikdir. Xüsusilə ritm, qafiyə, təkrarlama və nitq quruluşunu özündə birləşdirən şeir və onun əzbərlənməsi, intellektual problemli uşaqlarda eşitmə yaddaşının inkişafını müəyyən dərəcədə təmin edə bilər.

Şeirlər, strukturlaşdırılmış formalarına görə məlumatın yaddaşda kodlaşdırılmasını və saxlanmasını asanlaşdırır [Conrad, R., 1964]. Ritm və qafiyə, informasiyanı daha yaddaqalan edən mnemonik texnika kimi əsas sözlərin və ifadələrin

təkrarlanması yolu ilə materialın yaddaşda "bərkidilməsinə" kömək edir [Ebbinghaus, H., 1885/1964]. Şeirlər əksər hallarda zəngin bədii obrazlar və emosional məzmun ehtiva edir ki, bu da müsbət assosiasiyalar yaradaraq yaddaşın möhkəmlənməsinə şərait yaradır [Rubin, D.S., 1995]. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası onların inkişaf səviyyəsini dəqiq qiymətləndirməklə bağlıdır" [Qasımov, S., Kərimova, E., 2004].

Şeir əzbərlənməsinin intellektual problemli uşaqların eşitmə yaddaşının inkişafına müsbət təsiri barədə nəzəri əsaslandırmalar mövcud olsa da bu üzrə birbaşa empirik araşdırmalar çox az saydadır. Mövcud tədqiqatlar, əsasən, intellektual inkişaf pozuntusu olan uşaqlarda musiqi terapiyası vasitəsilə koqnitiv funksiyaların inkişafına təsirini öyrənməyə yönəldilmişdir [Thompson, C.P., Kohn, L.E., Jonson, K.S., 2005].

**Problemin qoyuluşu**

İntellektual inkişafında pozulmalar müşahidə olunan uşaqların yaddaş proseslərində, xüsusən də eşitmə yaddaşında ciddi məhdudiyyətlər mövcuddur. Bu kateqoriyadan olan uşaqlar eşitdikləri məlumatı tam dərk etməkdə, onu sistemləşdirməkdə və uzun müddət yadda saxlamaqda çətinlik çəkirlər. Ənənəvi tədris üsulları, əsasən, mexaniki təkrara, əyani materialların istifadəsinə və sadələşdirilmiş məzmun təqdimatına əsaslandığından eşitmə yaddaşının inkişafını tam təmin etmir. Halbuki, şagirdlərin şifahi təlim materiallarını qavraması, danışıq nitqini düzgün qurması və sosial mühitdə ünsiyyətə daxil olması üçün eşitmə yaddaşının inkişafı həlledici əhəmiyyət daşıyır. Buna görə də intellektual pozulmaları olan uşaqlar üçün eşitmə yaddaşının inkişafını stimullaşdıran xüsusi metodların hazırlanması və onların praktik tətbiqinin sınaqdan keçirilməsi pedaqoji və psixoloji baxımdan aktuallıq kəsb edir. Problemin elmi əhəmiyyəti ondan ibarətdir ki, yaddaş proseslərinin inkişaf qanunauyğunluqları öyrənilməklə yanaşı, təlim prosesində istifadə oluna biləcək səmərəli korreksiyaedici üsulların işlənməsi üçün nəzəri baza formalaşdırılır.

**Metodologiya**

Tədqiqatın diaqnostika mərhələsində A.R.Luriyanın və S.Y.Rubinşteynin işləyib hazırladığı "10 söz" metodikası tətbiq olunmuşdur. Bu metod vasitəsilə həm dərhal yadasalma, həm də bir müddət keçdikdən sonra yadasalma göstəriciləri qiymətləndirilmişdir. Bundan əlavə, eksperimental qrupda 3 ay müddətində həftədə iki dəfə olmaqla "strukturlaşdırılmış şeir əzbərləmə proqramı" həyata keçirilmişdir. Bu proqram uşaqlarda ritm, intonasiya və emosional təqdimat vasitəsilə eşitmə yaddaşının stimullaşdırılmasına yönəlmişdir. Nəzarət qrupunda isə tədris prosesi ənənəvi üsullarla davam etdirilmiş, əlavə müdaxilə tətbiq olunmamışdır. Eksperimentdən əvvəl və sonra aparılan diaqnostikadan əldə edilən nəticələr statistik emal üçün Python proqram təminatında işlənmişdir. Orta göstə-

ricilər, standart sapmalar, qruplararası fərqlər və korrelyasiya əmsalları hesablanaraq eksperimental təsirin effektivliyi müəyyən etmişdir.

## Əsas hissə / Main part

İntellektual inkişaf pozuntusu olan uşaqların eşitmə yaddaşını şeir əzbərləmə vasitəsilə korreksiya edərək bu tədqiqat sahəsini genişləndirmək istədik. Tipik inkişafa malik uşaqlarda eşitmə yaddaşının inkişafı təbii şəkildə və digər koqnitiv funksiyalarla sinxron şəkildə baş verir. Lakin intellektual inkişaf pozuntusu olan uşaqlarda bu proses çox vaxt çətinliklərlə müşayiət olunur. Eşitmə yaddaşının məhdudluğu nitqin, tədris proqramının mənimsənilməsini və digər idraki funksiyaların inkişafını çətinləşdirir. Məsələn, bu kateqoriyadan olan uşaqlar çox vaxt uzun göstərişləri yadda saxlamaqda, səsləri fərqləndirməkdə, məlumatı düzgün şəkildə qəbul edib qavramaqda, obyektlər və hərəkətlər arasında əlaqə yaratmaqda çətinlik çəkirlər. Qeyd etmək vacibdir ki, eşitmə yaddaşının inkişafındakı ən kiçik problemlər belə uşaqların öyrənmə və sosial inteqrasiya imkanlarına əhəmiyyətli dərəcədə təsir göstərir.

Eşitmə yaddaşı nitqin mənimsənilməsi prosesində əsas rol oynayır. İntellektual inkişaf pozuntusu olan uşaqlarda şeir əzbərləmə eşitmə yaddaşının inkişafına kömək edən, səsli informasiyanı qavrama və yadda saxlamanı yaxşılaşdıran təsirli bir vasitə ola bilər. Şeir öyrənmənin iş mexanizmi, onun ritmik və qafiyəli quruluşunda gizlidir; bu xüsusiyyətlər məlumatı qəbul etməyi və yadda saxlamağı asanlaşdırır, şeirlərin informasiyanı yadda saxlamaq üçün effektiv mnemonik texnikalara çevrilməsini təmin edir. Şeirin əzbərlənməsi təkcə yaddaşı gücləndirmir, həm də diqqət, fonematik qavrayış və motor bacarıqları kimi əlavə neyropsixoloji prosesləri aktivləşdirir.

İntellektual inkişaf pozuntusu olan uşaqlar üçün şeirdə təkrarlanan səslər yaddaşın inkişafına əlavə dəstək verir. Bu, qafiyəli sətirlərin daha asan qəbul edilməsi və onların ritmliliyi sayəsində daha tez yadda saxlanılması ilə baş verir. Beləliklə, şeirlər eşitmə yaddaşını məşq etdirmək üçün yalnız yaddaşın inkişafına kömək etməklə kifayətlənmir, həm də diqqət və konsentrasiya kimi digər koqnitiv bacarıqları inkişaf etdirir.

Bundan əlavə, şeirlərlə işləyərkən emosional komponentin də önəmi vacibdir. Ritm və şeir quruluşuna yönəldilərək, uşaqlarda narahatlıq və gərginliyi aradan qaldırmağa və emosional vəziyyətlərini yaxşılaşdırmağa nail olmaq mümkündür. Bu isə, öz növbəsində, onların öyrənmə və yaddaş qabiliyyətlərinə müsbət təsir göstərir. Şeirlərə emosional cəlb olunma prosesi yalnız koqnitiv deyil, həm də emosional-sosial funksiyaların inkişafına gətirib çıxara bilər.

Baxmayaraq ki, intellektual inkişaf pozuntusu olan uşaqlarda yaddaş və nitq bacarıqlarının inkişafı ilə bağlı çoxsaylı tədqiqatlar mövcuddur, şeirin öyrənilməsinin eşitmə yaddaşına təsiri hələ də kifayət qədər araşdırılmamışdır. Bu sahədə aparılan tədqiqatlar, əsasən, musiqi və ritmin öyrənmə prosesinə təsiri üzərində dayanır, lakin şeirlərlə eşitmə yaddaşının yaxşılaşdırılmasına dair tətbiq və təsir geniş şəkildə təhlil edilməmişdir. Bu isə şeir öyrənməyin eşitmə yaddaşına təsir mexanizmlərinin başa düşülməsində boşluq yaradır, xüsusilə də inkişaf pozuntuları olan uşaqlar kontekstində. Yaddaşın inkişafına şeirlərin təsirini əsaslandıran tədqiqatlar hələ də məhdud saydadır.

Bütün bu nəzəri əsaslandırmalar və empirik tədqiqatların nəticələrini nəzərə alaraq qeyd etmək olar ki, şeir əzbərləmə metodu intellektual problemli uşaqlarda eşitmə yaddaşının inkişafına müsbət təsir göstərə bilər və bu metod gələcəkdə daha geniş şəkildə tətbiq olunmaq üçün yüksək potensiala malikdir.

Tədqiqatın eksperimental hissəsində tərtib edilmiş strukturlaşdırılmış şeir əzbərləmə proqramı tətbiq edilmişdir.

Bu proqramın əsas xüsusiyyətləri aşağıdakılardır:

1. **Mərhələli əzbərləmə:** şeir hissələrə bölünərək mərhələli şəkildə öyrədilir. Əvvəlcə bir bənd, sonra isə növbəti bəndlər əlavə olunaraq proses davam etdirilir.
2. **Ritm və intonasiya:** şeirin musiqi və ya ritmik təkrarlamalarla əzbərlənməsi yaddasaxlama prosesini asanlaşdırır.
3. **Təkrar və möhkəmləndirmə:** məlumatın uzunmüddətli yaddaşa ötürülməsi üçün təkrarlamalar həyata keçirilir.
4. **Vizual dəstək**: şeirin dinlənməsi ilə yanaşı, müvafiq şəkillər və ya video materialların təqdim olunması ilə vizual yaddaş da stimullaşdırılır.

Hazırkı tədqiqatın məqsədi intellektual inkişaf pozuntusu olan uşaqlarda şeir əzbərləmənin eşitmə yaddaşının inkişafına təsirini öyrənməkdən ibarətdir. Strukturlaşdırılmış şeir əzbərləmə proqramında iştirak etmiş uşaqların eşitmə yaddaşının göstəriciləri, proqramda iştirak etməyənlərlə nisbətdə daha yüksək olacaqdır. Tədqiqat, intellektual inkişaf pozuntusu olan uşaqlarda eşitmə yaddaşının reabilitasiyası üçün effektiv metodlar haqqında bilik bazasına töhfə verməyi və bu qrup uşaqlarla işləyən pedaqoqlara və mütəxəssislərə praktik tövsiyələr verməyi hədəfləyir.

Şeir əzbərləmə pedaqoqlar, loqopedlər və psixoloqlar üçün effektiv metod ola bilər. Həmçinin bu metodun valideynlər tərəfindən ev şəraitində tətbiq olunması da mümkündür. Maksimal səmərəliliyi təmin etmək məqsədilə metod hər bir uşağın inkişaf səviyyəsi və fərdi ehtiyaclarına uyğun şəkildə tətbiq edilməlidir.

**Metodikalar.** Tədqiqat Bakı şəhəri 286 saylı tam orta məktəbdə, 11 və 3 saylı xüsusi təhsil müəssisələrində aparılmışdır. Eksperimentə, ümumilikdə, 50 nəfər

(25 nəfər nəzarət qrupunda, 25 nəfər eksperimental qrupda yer almışdır) 6-10 yaş arası intellektual problemli uşaqlar cəlb edilmişdir. Bu yaş aralığı həm erkən inkişaf dövrünü, həm də ümumi orta məktəb təhsilinin mühüm mərhələsini əhatə edir. Məhz bu dövrdə yaddaş və qavrayış funksiyalarının stimullaşdırılması, sonrakı illərdə akademik nailiyyətlərin formalaşması üçün əsas baza rolunu oynayır.

Eşitmə yaddaşının diaqnostikası üçün A.R.Luriyanın "10 söz" metodikasından istifadə olunmuşdur. 3 ay müddətində yalnız eksperimental qrup ilə korreksiyaedici iş aparıldıqdan sonra nəticələr bir daha hər iki qrup üzrə yenidən yoxlanılmışdır. Statistik təhlil *Python* proqramlaşdırma dili vasitəsilə aparılmış, təhlil zamanı hər iki qrup üzrə aşağıdakı göstəricilər müəyyənləşdirilmişdir:

- korreksiyaedici işdən əvvəl və sonra orta qiymət;
- korreksiyaedici işdən əvvəl və sonra standart kənarlaşma;
- əvvəlki və sonrakı nəticələr arasında orta fərq – korrelyasiya.

Eksperimental qrupda korreksiyaedici iş strukturlaşdırılmış metod vasitəsilə aparılmışdır.

İntellektual inkişaf pozuntusu olan uşaqların eşitmə yaddaşının inkişaf etdirilməsi məqsədilə 3 ay müddətində həyata keçirilən strukturlaşdırılmış şeir əzbərləmə proqramı, xüsusi təlim metodlarına əsaslanaraq hazırlanmışdır. Proqram, həftədə iki dəfə olmaqla, ümumilikdə, 24 məşğələdən ibarətdir və hər məşğələ 20-30 dəqiqə davam etmişdir.

**Proqramın strukturu:** proqramın əsas məqsədi uşaqların eşitmə yaddaşını inkişaf etdirməkdir. Hər məşğələ aşağıdakı mərhələləri əhatə edir:

- *Motivasiya mərhələsi.* Ritmik oyun vasitəsilə uşaqların diqqəti cəmlənərək şeirə yönləndirilir.
- *Yeni şeirin təqdimatı.* Müəllim tərəfindən şeir ifadəli şəkildə səsləndirilir.
- *Şeirin mərhələli əzbərlədilməsi.* Şeir hissə-hissə öyrədilir və uşaqlarla birgə təkrar olunur.
- *Ritm və intonasiya ilə təkrar.* Şeirə uyğun ritmik hərəkətlər və jestlər vasitəsilə yaddasaxlama dəstəklənir.
- *Yaradıcı tapşırıqlar.* Şeirlə bağlı sadə sual-cavab, qafiyə tapma, illüstrasiya yaratma fəaliyyətləri yer alır.

**Proqrama daxil edilmiş şeirlər:** proqrama, yaş səviyyəsinə və intellektual qabiliyyətlərinə uyğun, qısa, aydın və ritmik quruluşa malik şeirlər daxil edilmişdir. Şeirlər, əsasən, klassik Azərbaycan uşaq poeziyası və müasir şairlərin sadə dildə yazılmış əsərlərindən seçilmişdir:

- Abdulla Şaiq – "Qızıl gül"
- Mirmehdi Seyidzadə – "Uçun, quşlar!"
- Mirzə Ələkbər Sabir – "Uşaq və buz"
- Teymur Elçin – "Sərçə"

- Teymur Elçin – “Can nənəm”

Əlavə olaraq, müəllim proqram boyu şeirlərin mövzusunu uşaqların gündəlik həyatına və maraq dairəsinə uyğunlaşdırmağa çalışmış, bununla da onların motivasiyası daha da yüksəlmişdir.

## Strukturlaşdırılmış şeir proqramı üzrə bir məşğələnin mərhələli planı (məzmun və müddət üzrə)

Cədvəl 1.

| Mərhələlər | Məzmun və fəaliyyətdən ibarət izah | müddət |
|---|---|---|
| Motivasiya və diqqət toplama | Salamlaşma, ritmik əl çalma oyunu ilə uşaqların diqqəti cəmlənir. | 5 dəq. |
| Yeni şeirin təqdimatı | Müəllim şeiri ifadəli şəkildə iki dəfə səsləndirir.<br>Şeirin adı və müəllifi qeyd olunur. | 5 dəq. |
| Mərhələli əzbərlətmə | Ritmik əl hərəkətləri ilə müşayiət edilir.<br>Qafiyələrə xüsusi diqqət yetirilir. | 10 dəq. |
| Dəstəkləyici fəaliyyətlər | Şeirlə bağlı sual-cavab (“Sərçə nə edirdi?”, “Mən niyə ağlamaq istədim?” və s.)<br>Sərçə təsvirli şəkil seçmək və müzakirə etmək. | 5-10 dəq. |
| Möhkəmləndirmə və yekun | Şeirin bütöv şəkildə təkrarı.<br>“Ən çox yadında nə qaldı?” sualı ilə refleksiya.<br>Sağollaşma. | 5 dəq. |

Eksperimental iş aparıldıqdan sonra hər iki qrup üçün əldə edilən nəticələr aşağıda göstərilmişdir:

**Eksperimental qrup:**

1. Korreksiyaedici işdən əvvəl orta qiymət: ($\bar{X}$ = 1.88)
2. Korreksiyaedici işdən sonra orta qiymət (3 aydan sonra): ($\bar{X}$ = 2.56)
3. Korreksiyaedici işdən əvvəl standart sapma: ($\sigma = N\sum(Xi-\bar{X})2 = 0.86$)
4. Korreksiyaedici işdən sonra standart sapma: ($\sigma = N\sum(Xi-\bar{X})2 = 0.98$)
5. Nəticələr arasındakı orta fərq: ($N\sum D = 0.68$)
6. Nəticələr arasında korrelyasiya: ($r = 0.63$, $p < 0.05$)

Nəticələr eksperimental qrupda korreksiyaedici işin eşitmə yaddaşına müsbət təsir etdiyini göstərir. Ümumilikdə, iştirakçılar üç ay ərzində daha çox söz yadda saxlayıblar (orta qiymət 1.88-dən 2.56-a yüksəlib). Lakin, nəzərə almaq lazımdır ki, korreksiyaedici işdən sonra standart sapmanın artması (0.86-dan 0.98-ə) nəticələrin daha müxtəlif olduğunu göstərir. Bu, o deməkdir ki, qrupda həm yaxşı

irəliləyiş göstərən uşaqlar, həm də irəliləyişin az olduğu uşaqlar olub. Nəticələr arasındakı orta fərq (0.68) göstərir ki, ümumilikdə iştirakçılar müsbət dinamika nümayiş etdiriblər.

Nəticələr arasında korrelyasiyanın 0.63 olması, metodun davamlı effekt verdiyini, yəni ilkin mərhələdə daha yaxşı nəticə göstərən uşaqların sonrakı mərhələlərdə də inkişaf etdiyini göstərir. Bu, metodun qısa müddət ərzində effektiv nəticə verməklə yanaşı, davamlı öyrənmə vərdişləri qazandırdığını da sübut edir. Korrelyasiya statistik əhəmiyyətə malik olduğu üçün əldə edilən inkişaf təsadüfi deyil, tətbiq olunan metodla birbaşa əlaqəlidir.

**Müşahidə qrupu:**

1. Korreksiyaedici işdən əvvəl orta qiymət: ($\bar{X}$= 2.00)
2. Korreksiyaedici işdən sonra orta qiymət: ($\bar{X}$= 1.88)
3. Korreksiyaedici işdən əvvəl standart sapma: (σ= N∑(Xi−$\bar{X}$)2=1.00)
4. Korreksiyaedici işdən sonra standart sapma: (σ= N∑(Xi−$\bar{X}$)2 = 0.94)
5. Nəticələr arasındakı orta fərq: (N∑D= -0.12)
6. Nəticələr arasında korrelyasiya: ($r = 0.68$, $p < 0.05$)

Müşahidə qrupunda ilkin diaqnostikadan 3 ay sonra eşitmə yaddaşının orta qiyməti 2.00-dan 1.88-ə düşmüşdür. Nəticələr göstərir ki, heç bir xüsusi iş aparılmadan uşaqların eşitmə yaddaşı daha da zəifləmişdir. Bu eniş, inkişafın sabit qalmadığını və davamlı təlimin zəruri olduğunu göstərir. Əgər intellektual pozuntuları olan uşaqlara məqsədyönlü metodlarla müdaxilə edilməzsə, mövcud bacarıqların da zəifləmə ehtimalı yüksəlir.

Standart sapmanın azalması (1.00-dan 0.94-ə), nəticələrin daha stabil olduğunu göstərir. Ancaq orta fərq (-0.12) 3 ay müddətində yaddaşda heç bir müsbət dəyişiklik olmadığını və nəticələrin bir qədər azaldığını göstərir. Korrelyasiya (r= 0.68) nəticələr arasında müsbət əlaqə olduğunu göstərir, lakin bu əlaqə heç bir əhəmiyyətli dəyişiklik baş verməyib, çünki qrupda ümumi irəliləyiş müşahidə edilmir.

Alınan nəticələr şeir əzbərləmə metodunun uşaqlarda eşitmə yaddaşının inkişafında yüksək effektivliyə malik olduğunu göstərir. Eksperimental qrupda orta nəticələrdə müsbət dinamika müşahidə olundu, ancaq müşahidə qrupunda heç bir xüsusi iş aparılmadığı üçün müsbət dəyişiklik görülmədi. Bu da onu göstərir ki, xüsusi korreksiyaedici işlər həyata keçirilmədikdə uşaqların yaddaşı inkişaf etmir.

Əhəmiyyətli olan bir məqam da odur ki, şeir əzbərləmə metodu yalnız eşitmə yaddaşını inkişaf etdirmir, həm də uşaqların nitq və qavrayış bacarıqlarının artırılmasına kömək edir, diqqət və konsentrasiyanın inkişafına müsbət təsir göstərir.

## Nəticə / Conclusion

Aparılan diaqnostik test nəticələri intellektual inkişaf pozuntusu olan uşaqlarda eşitmə yaddaşının zəif inkişaf etdiyini göstərmişdir. Bu, onların ümumi nitq inkişafına, sosial ünsiyyət bacarıqlarına və təlim prosesində iştirakına mənfi təsir göstərmişdir. Eşitmə yaddaşının zəifliyi uşaqlarda dinləmə, informasiyanı qəbuletmə və mənimsəmə bacarıqlarını çətinləşdirir ki, bu da onların gündəlik həyatda və təhsil mühitində daha çox dəstəyə ehtiyac duymalarına səbəb olur.

Üç ay müddətində (həftədə 2 dəfə olmaqla) həyata keçirilən korreksiyaedici işlər (strukturlaşdırılmış şeir əzbərləmə proqramı vasitəsilə) nəticəsində eşitmə yaddaşında müəyyən qədər müsbət dinamika müşahidə edilmişdir. Proqram çərçivəsində uşaqlara yaşlarına və imkanlarına uyğun, ritmik, qısa və yadda qalması asan olan şeirlər təqdim edilmiş, bu şeirlər müxtəlif oyunlar, ritmik hərəkətlər və vizual materiallarla müşayiət olunaraq uşaqların marağı artırılmışdır. Qeyd olunan proqram üzrə korreksiya işləri daha uzun müddət davam etdirilərsə, nəticələrin daha yüksək olması gözlənilir.

Bu metod gələcəkdə daha geniş miqyasda tətbiq oluna bilər və intellektual pozuntuları olan uşaqlarla işləyən pedaqoqlar üçün tövsiyə edilə bilər. Bundan əlavə, gələcək tədqiqatlarda bu sahədə digər metodların – məsələn, musiqi terapiyası, interaktiv oyun texnologiyaları və vizual yaddaş texnikalarının tətbiqi də araşdırıla bilər. Bu kimi alternativ və ya tamamlayıcı üsullar eşitmə yaddaşının inkişafını daha da dərinləşdirə və uşaqların ümumi psixopedoqoji inkişafına müsbət təsir göstərə bilər.

Beləliklə, tədqiqatın nəticələrinə əsasən, şeir əzbərləmə metodunun intellektual inkişaf pozuntusu olan uşaqlarda eşitmə yaddaşının inkişafına müsbət təsir göstərdiyi müəyyən edilmişdir və bu metodu eşitmə yaddaşını gücləndirmək üçün effektiv bir vasitə kimi qiymətləndirmək mümkündür.

**Məqalənin aktuallığı.** İntellektual pozuntuları olan uşaqların təhsili və inkişafı müasir təhsil sisteminin ən vacib məsələlərindən biridir. Bu kateqoriyaya aid uşaqların xüsusi ehtiyaclarını nəzərə alaraq, onların inkişafında fərdi yanaşmaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Eşitmə yaddaşı isə intellektual inkişafı dəstəkləyən əsas bacarıqlardan biri hesab olunur. Şeir əzbərləmək, uşaqların eşitmə yaddaşını gücləndirərək onların dil bacarıqlarını, yaddaşını, diqqət konsentrasiyasını inkişaf etdirə bilər. Bu metodun intellektual inkişaf pozuntusu olan uşaqların təlimində tətbiqi yeni bir yanaşmadır və onların fərdi inkişafının stimullaşdırılmasına xidmət edir. Uşaqların təhsilində tətbiq olunan yeni, effektiv metodların təşviqi baxımından məqalə həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır və tədqiqatın aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Bu məqalənin elmi yeniliyi, intellektual inkişaf pozuntusu olan uşaqlarda eşitmə yaddaşının inkişafının şeir əzbərləmə metodu ilə araşdırılması və bu prosesin effektivliyinin müasir statistik metodlarla təhlil edilməsi ilə xarakterizə olunur. Tədqiqat çərçivəsində 3 ay ərzində həyata keçirilmiş korreksiyaedici işin nəticələri *Python* statistik proqram təminatı vasitəsilə obyektiv şəkildə təhlil olunmuşdur. Bu metodla aparılan statistik təhlil nəticələrin daha etibarlı və dəqiq olmasını təmin edir. Belə bir analitik yanaşma, xüsusi təhsil sahəsində daha öncə tətbiq olunmamış bir metodun həyata keçirilməsi ilə xarakterizə olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə yalnız nəzəri araşdırmaya deyil, həm də praktik tətbiqə yönəlmişdir. Şeir əzbərləmək, uşaqların yaddaşını inkişaf etdirməklə yanaşı, həm də diqqət və konsentrasiyasını artırır, nitq bacarıqlarını genişləndirir; bu da, öz növbəsində, onların öyrənmə və sosial inteqrasiya imkanlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Tədqiqatın nəticələri intellektual inkişaf pozuntusu olan uşaqlarla işləyən təhsil işçiləri üçün həm faydalıdır, həm də bu istiqamətdə yeni yanaşmaların tətbiqinə imkan yaradır.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Hüseynova N., Məlikov M. (2018). Xüsusi pedaqogikanın müasir problemləri. ADPU, Bakı.
2. Hüseynova N., Aslanova S. (2018). Xüsusi psixologiya (2 cild), ADPU, Bakı.
3. Qasımov S., Kərimova E. (2004). “Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası”, Bakı.
4. Alloway, T.P., Gathercole, S.E., Pickering, S.J. (2009). The cognitive and educational implications of working memory in children. Memory, 17(3), 130-137.
5. Baddeley, A.D. (2003). Working memory and language: An overview. Journal of Communication Disorders, 36 (3), 189-208.
6. Conrad, R. (1964). Acoustic confusions in immediate memory. Nature, 201(4913)1054-1055. DOI: 10.1038/2011054a0
7. Ebbinghaus, H. (1885/1964). Memory: A contribution to experimental psychology. Dover Publications.
8. Hodapp, R.M., Fidler, D.J. (1999). The Development of children with Down syndrome. Mental Retardation and Developmental Disabilities Research Reviews, 5(3), 121-129.

9. Koppenhaver, D.A., Yoder, D.E., Warren, S.F. (2000). A model of the development of communication in children with severe disabilities. Journal of Speech, Language, and Hearing Research, 43(1), 91-104.
10. Thaut, M.H., Gardiner, M.F., Holmberg, D. (2014). The role of music in the rehabilitation of movement disorders. Frontiers in Psychology, 5, 218. https://doi.org/10.3389/fpsyg.2014.00218
11. Rose, N., Houghton, S., Cartledge, P. (2016). The role of working memory in students with learning disabilities: An exploration of the interventions. Learning Disabilities: A Contemporary Journal, 14(1), 37-50.
12. Rubin, D.C. (1995). Memory in oral traditions: The cognitive psychology of epic, ballads, and counting-out rhymes. Oxford University Press.
13. Schalock, R.L., Borthwick-Duffy, S.A., Bradley, V.J., Alper, J. (2010). Intellectual disability: Definition, classification, and systems of supports (11th ed.). Washington, DC: American Association on Intellectual and Developmental Disabilities.
14. Thompson, C.P., Kohn, L.E., Johnson, K.S. (2005). Memory and learning: Effects of instruction on retention. Journal of Experimental Psychology: Learning, Memory, and Cognition, 31(4), 681-693. DOI: 10.1037/0278-7393.31.4.681

# PEDAGOGICAL ACTIVITY AND TEACHING LEGACY OF SAFARALI BEY VALIBAYOV

**Tarana Pashayeva**

Institute of Education of the Republic of Azerbaijan
dissertant on the Doctor of Philosophy program,
E-mail: terane.pashayeva.82@gmail.com
https://orcid.org/0000-0001-1201-3740

**Abstract.** The article comprehensively examines the pedagogical activity and teaching heritage of Safarali bey Valibayov, a prominent representative of Azerbaijani enlightenment at the end of the 19th and beginning of the 20th centuries. As one of the first Azerbaijani teachers to graduate from the Transcaucasian Teachers' Seminary, he rendered important services in the training of pedagogical personnel, in the formation of national educational traditions, and in the dissemination of enlightenment ideas. The article extensively highlights Valibayov's pedagogical views, principles of training and upbringing, teaching methods, as well as his role in the protection of national and spiritual values and the formation of students as personalities. The study especially emphasizes the author's application of the sovti method in teaching, the promotion of women's education, his contributions to the development of regional schools, and methodological approaches that can be applied in the modern educational process.
**Keywords:** Safarali bey Valibayov, pedagogy, teaching heritage, women's education, traditional method, national-moral values, enlightenment.

**DOI:** 10.30546/2709-2488.3.2025.0115
**To cite this article:** Pashayeva T. (2025). Pedagogical activity and teaching legacy of Safarali bey Valibayov. *Journal of Preschool and Primary Education*, Vol. 252, Issue III, pp. 65-74.
**Article history:** received – 07.08.2025; accepted – 13.09.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN PEDAQOJİ FƏALİYYƏTİ VƏ MÜƏLLİMLİK İRSİ

**Təranə Paşayeva**

Azərbaycan Respublikasının Təhsil İnstitutu,
fəlsəfə doktoru proqramı üzrə dissertant
E-mail: terane.pashayeva.82@gmail.com
https://orcid.org/0000-0001-1201-3740

**Annotasiya.** Məqalədə XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi olan Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti və müəllimlik irsi araşdırılmışdır. O, Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş ilk azərbaycanlı müəllimlərdən biri kimi pedaqoji kadrların hazırlanmasında, milli təhsil ənənələrinin formalaşmasında və maarifçilik ideyalarının yayılmasında mühüm xidmətlər göstərmişdir. Məqalədə Səfərəli bəy Vəlibəyovun pedaqoji baxışları, təlim və tərbiyə prinsipləri, müəllimlik metodları, eyni zamanda milli-mənəvi dəyərlərin qorunması və şagirdlərin şəxsiyyət kimi formalaşmasında rolu geniş şəkildə işıqlandırılır. Tədqiqatda, xüsusilə müəllifin sövti üsulun tədrisdə tətbiqi, qadın təhsilinin təşviqi, bölgə məktəblərinin inkişafına verdiyi töhfələr və müasir təhsil prosesində tətbiq oluna biləcək metodoloji yanaşmaları vurğulanır.

**Açar sözlər:** Səfərəli bəy Vəlibəyov, pedaqogika, müəllimlik irsi, qadın təhsili, sövti üsul, milli-mənəvi dəyərlər, maarifçilik.

**DOI:** 10.30546/2709-2488.3.2025.0115
**Məqaləyə istinad:** Paşayeva T. (2025). Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti və müəllimlik irsi. «*Məktəbəqədər və ibtidai təhsil*», № 3 (252), səh. 65-74.
**Məqalə tarixçəsi:** göndərilib – 07.08.2025; qəbul edilib – 13.09.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Introduction / Giriş

The activities of Safarali bey Valibayov, one of the prominent figures in the pedagogical history of Azerbaijan, are the subject of extensive research. Although some scientific studies have been conducted on his pedagogical heritage and teaching principles, they have mostly been generalized in the context of the enlightenment movement. This article presents Valibayov's teaching heritage for the first time in a systematic manner. The relevance of the topic is associated with the need to study national pedagogical traditions and the possibility of making a methodological contribution to the modern educational process. In addition, the analysis of the used literature shows that Valibayov's pedagogical principles remain relevant today. Safarali bey Valibayov's pedagogical principles and teaching activities are considered a significant legacy that contributes to the formation of theoretical foundations and the improvement of educational processes in methodological and practical aspects in the modern Azerbaijani education system.

Həyata keçirilən bu layihələr məktəbəqədər yaşlı uşaqlarda kiçik motor hərəkətlərin koordinasiyası, gigiyena qaydalarına riayət etmək, ətraf aləmdə baş verən hadisələri təsvir etmək, əməkdaşlıq, tədqiqat zamanı yaranan problemlərin həlli yollarını müəyyənləşdirmə, obyekt və hadisələri öyrənmək üçün ölçü alətlərindən istifadə, quraşdırma, yapma, informasiyanı axtarmaq, seçmək və s. bacarıqların inkişaf etdirilməsinə xidmət edir.

**Müəllim üçün tövsiyələr:**

- Uşaqların maraqlarını müşahidə et və fəaliyyətləri onlara uyğunlaşdır.
- Valideynləri layihəyə cəlb et (evdə salat hazırlamaq, bağçaya baxmaq).
- Fəaliyyətləri foto və video ilə sənədləşdir.

Bu fəaliyyəti əsaslandıran nəzəri aspektləri birlikdə nəzərdən keçirək:

**1. Təcrübə əsaslı öyrənmə nəzəriyyəsi (Con Dyui).** "Öyrənmə fəaliyyətdə baş verir" prinsipi bu layihənin əsasını təşkil edir. Problem əsaslı öyrənmə, uşağın öyrənmədə fəal iştirak etdiyi pedaqoji metodlardan biridir. Uşaqlar simit bişirmə, araşdırma aparma və sərgi təşkil etməklə real həyatla əlaqəli təcrübələr yaşayır, bu da onların kritik düşünmə, problem həlletmə və müstəqil qərarvermə bacarıqlarını inkişaf etdirir [College Sidekick, 2025].

**2. Sosial konstruktivizm nəzəriyyəsi (Lev Vıqotski).** Valideynlərlə əməkdaşlıq, müəllim yönləndirməsi və qrup işi Vıqotskinin nəzəriyyəsinə uyğundur. Uşaqlar daha təcrübəli şəxslərlə birlikdə öyrənərək öz potensiallarını genişləndirirlər. Bu, onların sosial bacarıqlarını və dil inkişafını da dəstəkləyir.

**3. "Çoxnövlü intellekt" nəzəriyyəsi (Hovard Qardner).** Layihədə rəsmlər çəkmək, sərgi hazırlamaq, simit bişirmək və ideya təqdim etmək uşaqların vizual, kinestetik, interpersonal və lingvistik zəka növlərini aktivləşdirir. Bu yanaşma fərdi fərqlilikləri nəzərə alaraq hər uşağın güclü tərəfini ortaya çıxarır.

**4. Koqnitiv inkişafın təsiredici nəzəriyyəsi (Jan Piaje).** Uşaqların öz ideyaları ilə fəaliyyətlər planlaması onların müstəqil düşünmə, səbəb-nəticə əlaqəsi qurma və məntiqi strukturlaşdırma bacarıqlarını inkişaf etdirir. Bu, Piajenin konkret əməliyyat mərhələsinə uyğun gəlir.

Məktəbəqədər təhsildə layihə əsaslı öyrənmə yanaşması, uşaqların həm bilik, həm də bacarıq qazanmasını dəstəkləyən çoxşaxəli bir modeldir. Bu kontekstdə, Böyükağa Mikayıllının qeyd etdiyi kimi, Böyük Britaniyada tətbiq olunan Erkən İnkişaf Dövrü Proqramı uşaqların fiziki və mənəvi inkişafını, rifahını yüksəltməyi hədəfləyir və məktəbəqədər təhsil üçün prioritet istiqamətləri müəyyənləşdirir. Proqram yeddi əsas sahəni əhatə edir:

- **Dil və ünsiyyət:** uşaqlarda dinləmək, danışmaq, müxtəlif vəziyyətlərdə ünsiyyət qurmaq və özünüifadə bacarıqları formalaşır.
- **Fiziki inkişaf:** uşaqlara hərəkətlərin koordinasiyası, hərəkətlilik, idmanla müntəzəm məşğul olma və sağlam qida vərdişləri aşılanır.
- **Şəxsi, emosional və sosial inkişaf**: uşaqlar emosiyalarını idarə etməyi, düzgün davranış formalarını və qarşılıqlı hörməti mənimsəyirlər.
- **Riyazi biliklər:** uşaqlarda ədədlər, ölçü vahidləri, toplama-çıxma əməliyyatları, sadə məsələlərin həlli və həndəsi fiqurların tanınması bacarıqları inkişaf etdirilir [Əlimərdanova, L., 2022].
- **Oxu bacarıqları:** erkən yaşlardan oxu və yazıya maraq yaradılır, uşaqlar resurslardan istifadə etməyi öyrənirlər.
- **Dizayn və incəsənət:** musiqi, rəqs, rəsm, dizayn və rollu oyunlar vasitəsilə uşaqlar hiss və düşüncələrini ifadə edirlər.
- **Dünyanı dərketmə:** ətraf mühit, texnologiyalar və sosial münasibətlər uşaqlar üçün müşahidə və araşdırma obyekti olur.

B.Mikayıllının fikrincə, bu proqram uşaqlara dünyanı yalnız fiziki deyil, həm də mənəvi dəyərlər prizmasından dərk etməyi öyrədir; təbiəti qorumaq, insanlara sevgi və hörmətlə yanaşmaq, sosial məsuliyyət hissini formalaşdırmaq kimi dəyərləri erkən yaşlardan aşılayır [Mikayıllı, B., 2022; Maçanova, C., 2025].

Beləliklə, layihə əsaslı öyrənmə məktəbəqədər mərhələdə tətbiq edilərkən, bu proqramda vurğulanan sahələrə inteqrasiya olunaraq uşaqların həm idrak, həm də sosial-emosional inkişafına mühüm töhfə verə bilər [Həmidova, T., 2024].

Həyata keçirilən layihələr sadəcə bir təlim fəaliyyəti deyil, həm də elmi nəzəriyyələrin praktik tətbiqidir. Uşaqlarla "Təbiəti qoruyaq" mövzusunda ekskursiya zamanı qarşılaşdığımız problemi birlikdə həll etməyə çalışdıq. Park gəzin-

tisində tüstülənən otu söndürdük. Hadisəyə dair səbəb və nəticə istiqamətində müzakirələr apararkən, uşaqların təbiəti mühafizəyə maraqları daha da artdı. "Təbiəti necə qoruyaq?" sualı yaranarkən, onlar özlərini təbiətin xilaskarı kimi hiss etdilər. Təxəyyülün fəallaşması yeni layihənin planlaşdırılması ilə nəticələndi, digər insanların maariflənməsi üçün uşaqlar öz təbiət nağıllarını, hekayələrini qurdular. "Kitab, mən və dünya" adlı layihədə 6 ölkədən nümayəndələr iştirak etdi. Azərbaycandan bu layihəyə 3 məktəbəqədər təhsil müəssisəsi qoşuldu. İştirakçılar cütlərlə və qruplarla işləyərək əməkdaşlıq etdilər, uşaqlar valideynləri ilə araşdırma aparıb, sualları cavablandırdılar, müzakirələr apardılar.

Layihə çərçivəsində "Təbiəti tanımaq, sevmək və qorumaq üçün insanlar maariflənməlidirlər", "Bunu kitablarla, şəkillərlə, videolarla daha yaxşı etmək olar" kimi fikirlər, təkliflər irəli sürüldü. Problem müəyyənləşdi, məqsəd və gözləntilər dəqiqləşdi, strategiya quruldu. Araşdırmalar nəticəsində uşaqlar yeni biliklər, məlumatlar əldə etdilər. Gündəlik həyatda aparılan müşahidələr və təhlillər onlarda təbiətə yeni baxış formalaşdırdı. Bu, uşaqların yaradıcı təfəkkürünün daha da aktivləşməsinə motivasiya idi. Layihə çərçivəsində uşaqlar kiçik şəkilli kitabçalar hazırladılar və paylaşdılar, mövzu ilə əlaqədar bir-birinə suallar ünvanladılar, real və ya mücərrəd fikirlərə münasibət bildirdilər.

Yazıçı Elçin Hüseynbəylinin "Dənizin nağılları" adlı kitabı ilə tanışlıq uşaqlar tərəfindən maraqla qarşılandı. Sadə dildə hazırlanan bu kitabdakı nağıllar üzərində aparılan təhlillər uşaqlarımıza çalışqanlıq, sədaqət, xeyirxahlıq, nəciblik, mübarizlik kimi yüksək mənəvi keyfiyyətlər aşılamaq məqsədi daşıyır. Azərbaycan Yazıçılar İttifaqının binasında Elçin Hüseynbəyli ilə keçirilən görüşdə tanışlıq zamanı uşaqlar müəllifə suallar ünvanladılar, əsərləri haqqında danışdılar və lahiyə çərçivəsində hazırladıqları şəkilli kitabçaları ona təqdim etdilər.

Layihə çərçivəsində həyata keçirilən görüşlər, gəzintilər, məşğələlər və digər fəaliyyətlərin uşaqların biliklərinin zənginləşməsində, idraki, ünsiyyət, estetik, sosial-emosional bacarıqlarının inkişafında əhəmiyyətli təsiri oldu. Rollu-süjetli oyunlar, müzakirə, nağıletmə üsullarının düzgün tətbiqi öyrənmə prosesinin nəticəsini bütün uşaqlar üçün uğurlu etdi. Uşaqyönümlü yanaşma layihənin demək olar ki, ana xətti idi. Proses uşaqların maraqları, fərdi xüsusiyyətləri, potensial imkanları və s. nəzərə alınaraq aparılırdı. Bu da onların hərtərəfli inkişafına münbit şərait yaratdı.

"Təbiəti öyrənək" mövzusuna həsr olunmuş digər bir layihəmizdə məşğələlərin təbiətlə əlaqələndirilərək öyrənilməsi uşaqlar üçün həm əyləncəli, həm də öyrədici oldu. Ekskursiya zamanı təbiət səslərini dinləmək, təbiət obyektləri haqqında məlumat toplamaq kimi fəaliyyətlər uşaqlar tərəfindən maraqla qarşılandı.

Savad təlimi məşğələsini təbiət səsləri, təbiət obyektləri ilə əlaqələndirdik: yağış yağarkən uşaqlarla eyvana çıxıb səssizcə təbiətin – yağışın səsini dinlə-

dik. Eşitdiyimiz səslərdən ritmik melodiya ifa etdik. Uşaqlar səsləri təkrar edib, masadakı hərf-kartlar ilə eşitdikləri səsi qurdular. Sonra yenidən su və yağış səslərindən ritmik melodiyanı səsləndirdik. Beləliklə, təbiətdən eşitdikləri səsləri hərf-kartlar ilə qurmaqla yeni hərflər ilə də tanış oldular. Deməli, bu inteqrativ yanaşma uşaqların əylənərək bir fəaliyyətdə çoxşaxəli inkişafına imkan yaratdı.

İtalyan pedaqoqu, Montessori təlim metodunun yaradıcısı Mariya Montessorinin fikrincə desək, erkən məktəbəqədər yaş dövründə sensor inkişaf mühüm rol oynayır. Uşaqların ətraf mühiti dərk etməsi canlı müşahidə sensor proseslərlə – hissiyyat, qavrama və təsəvvürlə başlayır və bunların inkişafı gələcəkdə daha mürəkkəb idraki proseslərin (yaddaş, təxəyyül, təfəkkür və s.) formalaşmasına zəmin yaradır. Deməli, həyata keçirilən layihə əsaslı öyrənmə təlimləri uşaqların fiziki, idraki, estetik, sosial-emosional inkişafını reallaşdırır, onlarda əməkdaşlıq, müşahidə, dinləmə, qərarvermə, planlaşdırma və təhlil bacarıqları formalaşdırır. Müşahidələr, araşdırmalar, müsahibələr, müzakirələr uşaqlara yeni bilik və bacarıqlar qazandırır. İnformasiya seçimi, emalı bacarığının mahiyyətini anlamaq şəxsiyyətin formalaşmasında vacib amildir. Doğru və yanlışın ayırd edilməsinə, səbəb və nəticənin əlaqələndirilməsinə sövq edən situasiyalar uşaqlarda analitik düşüncəni inkişaf etdirir. Özünəinam yaradacaq fəaliyyətlər layihə yanaşması ilə əlverişli və effektivdir. Bütün bu proseslər tərbiyəçi-müəllim üçün də araşdırma və təcrübədir.

## Nəticə / Conclusion

Layihə əsaslı öyrənməyə cəlb edilən 30 uşağın sosial bacarıqlarında, problem həlletmə qabiliyyətlərində və yaradıcı düşüncələrində əhəmiyyətli irəliləyişlər müşahidə edilmişdir. Tərbiyəçi-müəllimlər bu yanaşmanın uşaqların öyrənməyə olan motivasiyasını yüksəltdiyini təsdiq etmişlər. Uşaqlar apardıqları tədqiqatlar, müşahidələr əsasında nəticələrə gəldilər, təbiəti qorumaq üçün normalar tərtib etdilər, hekayələr, nağıllar qurub yaratdılar, rəsmlər çəkdilər, onları əlaqələndirib müqayisə etdilər və s. Deməli, inteqrativ öyrənmə prosesi uşaqların hərtərəfli harmonik inkişafını asanlaşdırdı. Layihədən sonrakı təhlillər, refleksiya işimizdəki boşluqları müəyyənləşdirmək və üzərində bizi yenidən işləməyə təşviq etdi.

Tədqiqat "Cahan" körpələr evi-uşaq bağçasında reallaşdırıldı. Bundan başqa daha bir neçə məktəbəqədər müəssisə ilə əməkdaşlıq edib, təcrübə mübadiləsi aparmışıq. "Mən dünyanın bir parçasıyam", "Sıfır tullantı", "Oyunla öyrənmə, xoşbəxt öyrənmə", "Kitab, mən və dünya", "Öyrənmə hər kəs üçün əlçatan", "Kiçik tədqiqatçılar" və b. bir çox layihələr çərçivəsində xarici ölkələrin və Azərbaycanın məktəbəqədər təhsil müəssisələri ilə əməkdaşlıq edərək uşaqlarla birlikdə dünyaya inteqrasiya edirik. Layihə əsaslı öyrənmə yanaşması təhsil prosesinin demək olar ki, bütün iştirakçıları üçün faydalıdır.

Araşdırmalar göstərir ki, layihə əsaslı öyrənmə çərçivəsində məktəbəqədər yaşlı uşaqlar müşahidə aparmaq, suallar vermək, hipotez irəli sürmək, təcrübə yolu ilə sınaqdan keçirmək və nəticə çıxarma kimi bacarıqları fəal şəkildə mənimsəyirlər. Layihə əsaslı yanaşma uşaqlara yalnız bilik qazandırmır, həm də onların təfəkkür fəallığını, tədqiqat yönümlü öyrənmə vərdişlərini inkişaf etdirir. Bu isə məktəbəqədər mərhələdə təlimin nəticəyönümlü və praktik əhəmiyyətini artırır.

L.Əmrahlı və N.Rzayevanın fikrincə, məktəbəqədər dövrdə formalaşan psixoloji xüsusiyyətlər uşaqların sonrakı yaş mərhələlərinin təməlini təşkil edir, xüsusilə də dil bacarıqları, emosional tənzimləmə və sosial münasibətlərdə mühüm rol oynayır. Bu yanaşma layihə əsaslı öyrənmənin məqsədləri ilə səsləşir, çünki layihələr uşaqlara həm bilik, həm də emosional və sosial inkişaf imkanları yaradır [Əmrahlı, L., Rzayeva, N.,2022].

Məktəbəqədər təhsildə layihə əsaslı öyrənmə istiqamətində mövcud maneələr, tədqiqatlar zamanı müşahidələrimiz, aparılan sorğular valideynlər və məktəbəqədər təhsil işçiləri ilə maarifləndirici işlərin aparılmasına ehtiyac olduğunu bir daha təsdiqlədi. Təcrübə mübadiləsi, əməkdaşlıq, inkişaf üçün geniş imkanlar reallaşdıran layihə əsaslı öyrənmə gələcək nəslin hərtərəfli formalaşdırılması baxımdan tərbiyəçi-müəllimlər üçün olduqca əlverişli yanaşmadır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə uşaqların təlimə həvəslə cəlb olunması müxtəlif təlim metodlarından istifadə etməklə mümkündür. Onlarda öyrənməyə maraq oyadan təlim prosesini təşkil etməklə hərtərəfli inkişafa nail olmaq tərbiyəçi-müəllimlərdən bilik və bacarıqlar tələb edir. Metodun uğurlu tətbiqinə müsbət təsir göstərən amillərdən biri də valideynlərin bu prosesə aktiv cəlb olunmasıdır. Layihə əsaslı öyrənmə yanaşmasının uşaq şəxsiyyətinin formalaşmasında, hərtərəfli inkişafında effektiv olması bir çox tədqiqatçılar tərəfindən təsdiqlənib. Tərbiyəçi-müəllimlərə yeniliklərə açıq olmaq və daim üzərində işləyərək müxtəlif yanaşmaları, metodları araşdırıb tətbiq etmək müasir dövrün tələbidir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məktəbəqədər təhsildə layihə əsaslı öyrənmə yanaşmasının uşağın hərtərəfli harmonik inkişafında əhəmiyyəti elmə əsaslandırılmış təcrübələrlə təqdim olunmuşdur. Bu məqalənin əsas elmi yeniliyi layihə əsaslı öyrənmə modelinin məktəbədər təhsildə praktik tətbiq nümunələrini və onların nəticələrini sistemli şəkildə təqdim etməsi və bu sahədə mövcud boşluqları doldurmasıdır. Layihə əsaslı öyrənmə yanaşmasının Azərbaycanın məktəbəqədər təhsilində elmi tədqiqatlara əsaslandırılması yenilikdir.

**Məqalənin praktik əhəmiyyəti.** Araşdırmanın nəticələri tərbiyəçi-müəllimlərə, məktəbəqədər təhsil proqramı hazırlayanlara layihə əsaslı öyrənməni effektiv şəkildə planlaşdırmaq və tətbiq etmək üçün təcrübü əsaslar verir. Gənc tərbiyəçi-müəllimlər məqalədən yararlanaraq müvafiq layihə əsaslı öyrənmə modelini tətbiq edə bilərlər.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Əlimərdanova, L. (2022). Böyük Britaniyada STEAM. Azərbaycan müəllimi.
2. Əliyeva, Ş., Mustafayeva, S., Həmidova, X. (2020). Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. pdf https://www.kvalifikasiya.edu.az/modullar
3. Əmrahlı, L., Rzayeva, N. (2010). Uşaq psixologiyası. Bakı.
4. College Sidekick. (2025). Study docs. Retrieved from https://www.collegesidekick.com/study- docs/24617331
5. Həmidova, T. "Dərsdə layihə əsaslı öyrənmə modeli necə tətbiq olunur?". pdf
6. Maçanova, C.İ. (2025). Layihə əsaslı öyrənmənin strukturu [PDF file]. Retrieved from aa55b7bf-3391-4f76-b1cd-5b7b5df7fca5.pdf
7. Məktəbəqədər təhsil proqramı (kurikulum). (2022). Bakı, Təhsil Nazirliyi.
8. Mikayilli, B. (2022). Preschool education: World experience – historical and modern aspect. Ministry of Science and Education of the Republic of Azerbaijan. Retrieved from https://ppe-journal.edu.az/frontend/uploads/files/B%C3%B6y%C3%BCka%C4%9Fa%20Mikay%C4%B1l-l%-C4%B1.pdf
9. Mikayılova, Ü., Zeynalov, M., Kərimova, Y., Kazımzadə, E., Hüseynov, F. (2021). Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil: "Addım-addım" yanaşması (ingilis dilindən tərcümə). Bakı. TEAS Press Nəşriyyat evi.
10. Plotnikov, V.A., Veraksa, A.N., Veraksa, N.E. (2023). Psikhologicheskoye razvitiye doshkolnikov v proektnoy deyatelnosti: obzor empiricheskikh issledovanii. Moskovskiy gosudarstvenniy universitet imeni M.V. Lomonosova. Retrieved from https://edumag.mrsu.ru/content/pdf/23-4/04.pdf
11. Şahin, F., Güven, İ., Yurdatapan, M. (2013). Proje tabanlı eğitim uygulamalarının okul öncesi çocuklarında bilimsel süreç becerilerinin gelişimine etkisi.
12. Muallim.az. Xəbərlər. Retrieved from https://old.muallim.edu.az/news.php?id=20924&lang=

# DISCIPLINE EDUCATION OF PRESCHOOL CHILDREN AND SOME OF ITS PROBLEMS

**Perishan Hasanova**

Associate Professor, Department of Preschool Education Pedagogy,
Azerbaijan State Pedagogical University
E-mail: perisanhesenova@gmail.com
https://orcid.org/0000-0001-5840-5084

**Abstract.** The article evaluates discipline education as an essential condition for nurturing individuals who possess modern creative activity and are capable of reflecting both national and universal values. It analyzes the main directions for achieving discipline education in contemporary pedagogy, which is based on respect for the child's personality and demand-oriented approaches. It is emphasized that the daily routines and regulations of an educational institution cannot be altered according to the advice, instructions, or requirements of parents who lack knowledge of the scientific foundations of the pedagogical process and of their child's psycho-physiological characteristics. In other words, child-centered and humanistic education does not imply parental interference in the pedagogical process, as such interference may create certain psychological difficulties for children. The article also highlights several psycho-pedagogical problems and proposes specific solutions.
**Keywords:** educational program, discipline education, parental responsibility, national and universal values, modern human upbringing.

**DOI:** 10.30546/2709-2488.3.2025.0103
**To cite this article:** Hasanova P. (2025). Discipline education of preschool children and some of its problems. *Journal of Preschool and Primary Education*, Vol. 252, Issue III, pp. 91-101.
**Article history:** received – 19.07.2025; accepted – 25.08.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ UŞAQLARIN İNTİZAM TƏRBİYƏSİ VƏ ONUN BƏZİ PROBLEMLƏRİ

**Pərişan Həsənova**

ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının dosenti
E-mail: perisanhesenova@gmail.com
https://orcid.org/0000-0001-5840-5084

**Annotasiya.** Məqalədə intizam tərbiyəsi müasir yaradıcı fəallığa malik, milli və bəşəri dəyərləri özündə əks etdirməyə qadir insan tərbiyəsinin mühüm şərti kimi qiymətləndirilmiş, uşaq şəxsiyyətinə hörmət və tələbyönümlülüyə əsaslanan müasir təhsildə intizam tərbiyəsinə nail olmağın əsas istiqamətləri araşdırılaraq təhlil edilmişdir. Qeyd edilmişdir ki, pedaqoji prosesin elmi əsaslarına, övladının psixo-fizioloji xüsusiyyətlərinə bələd olmayan valideynlərin məsləhət, göstəriş və tələbləri əsasında təhsil müəssisəsinin gün rejimi norma və qaydalarını dəyişmək olmaz, yəni uşaqyönümlü, humanist təhsil heç də valideynlərin pedaqoji prosesə müdaxilə edə bilməsi demək deyil. Çünki bu, uşaqlarda bəzi psixoloji çətinliklər yarada bilər. Məqalədə bir sıra psixo-pedaqoji problemlərə nəzər salınmış, onların həlli yolları istiqamətində müəyyən təkliflər irəli sürülmüşdür. Məqalədə bir çox məktəbəqədər təhsil müəssisələrində proqramdan kənar məşğələlərin təşkilinin (repetitorluq fəaliyyəti) gündəlik rejimin norma və qaydalarına göstərdiyi mənfi təsirlər təhlil olunmuşdur.

**Açar sözlər:** təhsil proqramı, intizam tərbiyəsi, valideyn məsuliyyəti, milli və bəşəri dəyərlər, müasir insan tərbiyəsi.

**DOI:** 10.30546/2709-2488.3.2025.0103
**Məqaləyə istinad:** Həsənova P. (2025). Məktəbəqədər təhsildə uşaqların intizam tərbiyəsi və onun bəzi problemləri. «*Məktəbəqədər və ibtidai təhsil*», № 3 (252), səh. 91-101.
**Məqalə tarixçəsi:** göndərilib – 19.07.2025; qəbul edilib – 25.08.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Qlobal bir sistemə inteqrasiya olunmuş müasir dünya artıq əvvəlki qanunlar və prinsiplər əsasında fəaliyyət göstərmir. Buna görə də gənc nəslin tərbiyəsində müəyyən dəyişikliklərin baş verməsi danılmazdır. Bu dəyişikliklər düşündüyümüz və ya gözlədiyimiz nəticələri verməyə də bilər. Məsələn, vaxtilə A.S.Makarenkonun irəli sürdüyü tərbiyə prinsipləri (məqsədəuyğunluq, yəni müəllimi, özündən böyüyü görəndə ayağa durmaq, hər yerdə təmizliyə riayət etmək və s.) bu gün bir çox insan üçün mənasız görünə bilər. Bəs bu halda nə etməli?

Böyüməkdə olan nəslin tərbiyəsi dövrün ən aktual problemlərindən biridir. Məqalədə kreativ düşüncəyə və fəaliyyət tərzinə malik insanın formalaşmasında intizam tərbiyəsinin rolu əsaslandırılmış, bu tərbiyənin bünövrəsinin məhz məktəbəqədər təhsildən qoyulması fikri irəli sürülmüşdür. Məqalədə intizamın müasir insan tərbiyəsindəki əhəmiyyəti kontekstində elmi-pedaqoji əsərlər təhlil olunmuşdur. İntizam – insanın davranış və fəaliyyətinin müəyyən normalara, prinsiplərə, qayda-qanunlara uyğun idarə olunması, üzərinə düşən vəzifələri yerinə yetirməsi və vətəndaşlıq borcuna sadiq qalmasıdır. Bu, həm fərdi, həm də ictimai həyatda mühüm rol oynayan bir keyfiyyətdir. İntizam, sadəcə, qaydalara riayət etmək deyil, eyni zamanda qaydaların mənasını anlamaq və onlara könüllü olaraq tabe olmaq deməkdir. Bu, insanın özünü idarə etməsi, məsuliyyətli olması və cəmiyyətə faydalı olmaq üçün çalışması deməkdir. İntizamlı insan öz hərəkətlərinin nəticələrini anlayır və öz davranışı ilə başqalarına nümunə olur.

Hazırkı dövrdə istər müəllimlər, istərsə də valideynlər əsas diqqəti uşaqların intellektual inkişafına yönəldərək onların tərbiyəsini, vətəndaş mövqeyinin formalaşmasını ikinci plana keçirirlər. Halbuki, intizam tərbiyəsi gənc nəslin həyata hazırlanmasında mühüm şərtlərdən biri kimi qəbul edilməlidir.

Məktəbəqədər təhsildə uşaqların intizam tərbiyəsi və onun mövcud problemləri mövzusunda aparılan tədqiq və təhlillərdə məqsəd bu sahənin mütəxəssislərinin diqqətini məsələnin əhəmiyyətinə yönəltməkdir.

**Problemlə bağlı əsas sual:** məktəbəqədər təhsildə intizam tərbiyəsi uşaq şəxsiyyətinin inkişafına necə təkan verə bilər?

**Tədqiqat sualları:**

- İntizam tərbiyəsi nədir? Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin formalaşmasında intizam tərbiyəsi nə dərəcədə zəruridir?
- Məktəbəqədər təhsildə müəyyən olunmuş rejimə əməl edilməməsi intizam tərbiyəsinə necə təsir göstərir?
- Uşaqların həyata hazırlanmasında, istənilən mühitdə yüksək davranış nümayiş etdirməsində intizam tərbiyəsinin imkanları hansılardır?

- İntizam tərbiyəsinin pedaqoji əsaslarının valideynlərə öyrədilməsi onların şəxsi keyfiyyətlərinə necə təsir edə bilər?

**Metodologiya.** Məqalənin hazırlanmasında bir neçə tədqiqat metodlarından istifadə edilmişdir. Problemi araşdırarkən intizam tərbiyəsi ilə bağlı dövlət sənədləri və mövzuya dair bir sıra ədəbiyyat təhlilə cəlb edilmiş, məktəbəqədər müəssisələrin gün rejimi ilə bağlı fəaliyyətlər üzrə müşahidələr aparılmış, prosesin durumu təhlil olunaraq müəyyən nəticələr əldə edilmişdir.

## Əsas hissə / Main part

Hər bir xalqın özünü təsdiq edən bir çox dəyərləri vardır. Azərbaycan xalqının da böyüyə ehtiram və hörmət göstərmək, kiçiyə qayğı ilə yanaşmaq, verdiyi sözə, tapşırığa əməl etmək kimi bir çox milli və bəşəri dəyərləri vardır ki, bu dəyərlər qorunub saxlanılmalı, gələcək nəsillərə ötürülməlidir. Lakin mövcud cəmiyyətdə bu, o qədər də birmənalı qarşılanmır.

Ailələrdə əvvəllər bir sıra ənənələr mövcud idi: hamı eyni vaxtda yuxudan oyanar, salamlaşar, səhər, nahar və şam yeməyi üçün süfrə arxasında birgə əyləşərdilər. Hazırda bu ənənələrin davam etdirilməsi əksər hallarda vacib hesab edilmir. Bəzi ailələr iş rejimi, bəziləri isə işsizlik və ya ailədaxili problemlərin bu ənənələrin davam etdirilməsinə mane olduğunu bildirirlər. Bəzən isə ənənələrin lüzumsuz hesab edildiyi də müşahidə olunur.

Deməli, baş verən qlobal dəyişikliklər cəmiyyətdə bir sıra mənəvi aşınmalara səbəb olmuşdur ki, bu da pedaqoji prosesdə müxtəlif çətinliklərə yol açır. Böyüməkdə olan nəsil sağlam, yüksək intellektə malik və sosial fəallığı ilə seçilən fərd olmağı bacarmalıdır. Bunun üçün isə ondan müəyyən şəxsi keyfiyyətlərə malik olması tələb olunur. Bu keyfiyyətlərdən ən əsası yüksək intizam tərbiyəsidir. İntizamlı insan müsbət vərdişlərə malik olan insandır. Bu isə o deməkdir ki, belə bir insan heç bir çətinlik çəkmədən və heç kimə mane olmadan öz işini sistemli və səmərəli şəkildə təşkil edə bilir.

Əvvəldə qeyd olunanlar bizə deməyə əsas verir ki, nə müasir ailə, nə də müasir məktəb təhsilalanlarda yüksək intizam tərbiyəsi formalaşdıra bilmir. Yüksək intizam yalnız mütəşəkkil kollektivdə formalaşa bilər. Lakin bəzi müasir ailə kollektivində və təhsil müəssisəsində bu mümkün deyil.

Uşaq əvvəl ailədə böyüyür. Ailə də bir kollektivdir. Müasir dövrdə bir çox Azərbaycan ailələri nuklear ailə modelinə malikdir – ata, ana və uşaq. Bundan başqa, uşaqların bir çoxu natamam ailələrdə böyüyür. Belə ailələrdə valideynlərdən biri – ya ata, ya da ana yoxdur. Bəzi uşaqlar isə valideynlərindən, nənə və babalarından ayrı böyüyür.

İntizam tərbiyəsi uşaqların fəal həyata hazırlanması prosesində özünəməx-

susluğu ilə seçilir, hərəkətlərini və rəftarını təkmilləşdirir, onlarda cavabdehlik və məsuliyyət hissi formalaşdırır. Bəs intizam nədir? İntizam insan həyatının nizamı, ömrün düzgün istiqamətləndirilməsi, daxili mədəniyyətin təzahürü, hər bir insanda potensial olaraq mövcud olan fiziki və intellektual qüvvələrin səfərbər olunması və bu qüvvələrdən daha səmərəli istifadə bacarığıdır [Həşimov, Ə.Ş., 1975]. İntizam insan davranışının əxlaq norması olmaqla yanaşı, başqalarına qarşı münasibətin də göstəricisidir. İntizam, tərbiyə prosesində mühüm pedaqoji məsələdir, insan davranışlarının nizamlanması və mənəvi keyfiyyətlərinin formalaşdırılması üçün vacib şərtdir.

İntizam, cəmiyyət tərəfindən müəyyən edilmiş normalara, həmçinin şəxsi, peşəkar və ailə həyatındakı qaydalara əməl etməklə, insana özünü dərk etməyə, potensialını tam reallaşdırmağa və daha məhsuldar həyat qurmağa kömək edir. Bu, təkcə qanunlara tabe olmaq deyil, həm də sağlam davranışlar formalaşdırmaq, məqsədlərə çatmaq və əlaqələr qurmaq deməkdir.

İntizam qaydalarının pozulması cəmiyyət üçün arzuolunmaz nəticələrə səbəb ola bilər. Buna görə də intizamın qorunması və möhkəmləndirilməsi vacibdir. İntizam, eyni zamanda hər bir kollektivin inkişafında mühüm rol oynayır. Əgər bir qrup insan eyni məqsədə çatmaq üçün çalışırsa, onların intizamlı olması uğurun əsas şərtlərindən biridir. İntizam hər bir kollektivin bütün üzvləri üçün vacib olan ciddi tələbdir. Qaydalara tabe olmaq, öhdəliklərini məsuliyyətlə yerinə yetirmək və vətəndaşlıq borcuna sadiq qalmaq intizamlı insanı səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Tərbiyə prosesi ailədən başlasa da, uşağın şəxsiyyət kimi formalaşması, əsasən, ictimai tərbiyə sistemi çərçivəsində həyata keçir.

Uşaqlarda intizam tərbiyəsi məktəbəqədər təhsil müəssisələrində qayda-qanunlar, prinsiplər əsasında formalaşdırılır. Məktəbəqədər təhsil müəssisələrində tətbiq olunan uşaqyönümlü, şəxsiyyətyönümlü, tələbyönümlü və inteqrativ "Məktəbəqədər təhsil proqramı" belə bir rejimin tətbiqi üçün geniş imkanlar yaradır [Məktəbəqədər təhsil proqramı (kurikulum), 2022]. İntizam tərbiyəsinin həyata keçirilməsi üçün müəyyən şərtlər tələb olunur. Bu şərtlərdən biri uşaqların qaydalara alışdırılması, onların intellektual ehtiyaclarının, oyun və yaradıcılıq tələblərinin öyrənilməsi və nəzərə alınmasıdır. "Məktəbəqədər təhsil proqramı"nda bu məsələlər ədalətli şəkildə öz əksini tapmışdır.

Mövcud məktəbəqədər təhsil müəssisələrində bu qaydalara əməl olunurmu? Müşahidələr onu deməyə əsas verir ki, bu, belə deyil. "Məktəbəqədər təhsil proqramı"nda hər yaş qrupu üzrə uşaqların inkişafı ilə bağlı göstəricilər, məşğələ sayı müəyyənləşdirilmişdir. Bu qaydalara əməl etmək məktəbəqədər yaşlı uşaqları rejimə alışdırır və onların intellektual-yaradıcı inkişafına təkan verir. O cümlədən, məktəbəqədər müəssisələrdə gün rejiminin düzgün müəyyənləşdirilməsi fəaliyyət növlərinin növbələşdirilməsini də nəzərdə tutur ki, bu da uşaqların nəinki

idraki inkişafına, həmçinin onlarda fiziki, estetik-bədii zövqün formalaşmasına, sosiallaşmalarına imkan yaratmış olur. Pedaqoji prosesdən və uşaqların psixo-fizioloji xüsusiyyətlərindən xəbərsiz olan valideynlərin əksəriyyəti övladlarını məktəbəqədər müəssisəyə gətirərkən belə tələblər irəli sürürlər: "Uşağım məktəbə gedənə qədər rus və ingilis dillərində danışmağı, yazıb-oxumağı öyrənməli, şahmat və gimnastika ilə məşğul olmağı bacarmalıdır". Müəssisə rəhbərliyi proqram tələblərinin buna imkan vermədiyini, uşaqların oyun, gəzinti, yemək və yuxu saatlarının proqramlaşdırıldığını bildirdikdə, valideyn belə cavab verir: "O zaman mən başqa bağçanı seçəcəyəm".

Uşaqlar məktəbəqədər müəssisəyə gəldikdə, ətraf aləmi müşahidə etməli, oynamalı, bir neçə əmək növündə iştirak etməli, müəyyən xüsusiyyətlərinə uyğun olaraq tərbiyəçi-müəllimdən fərdi tapşırıqlar almalı, gigiyenik təmrinlərdən sonra səhər yeməyinə əyləşməli, otaq yığışdırıldıqdan sonra məşğələlərə başlanılmalıdır. Məşğələlərin sayı gün ərzində uşaqların yaş səviyyələrinə uyğun olaraq dəyişir. Beləliklə, bu yaşda əmək vərdişlərinin, dəyərlərin, davranış qaydalarının və normalarının, biliklərin mənimsənilməsi uşağın bir şəxsiyyət olaraq inkişafı üçün zəmin yaradır. Məktəbəqədər təhsil müəssisəsi uşağın sosiallaşmasında mühüm rol oynayır: qayda-qanunlara riayət edir, ünsiyyət qurur, əməkdaşlıq edir və bir çox sosial bacarıqlara yiyələnir.

Bəs, məktəbəqədər müəssisələrdə valideynlərin tələb və göstərişlərinə uyğun böyüyən uşaqları nə gözləyir? Təcrübədə müşahidə olunur ki, uşaqlar qrupun təlim məşğələlərini başa vurduqdan sonra, tərbiyəçi-müəllimlər növbə ilə qrup otağına daxil olaraq onları musiqi, şahmat, gimnastika kimi müxtəlif fəaliyyətlərə yönləndirirlər. Lakin bir neçə uşaq fəaliyyətdən kənarda qalır. Tərbiyəçi-müəllimdən uşaqların prosesə niyə cəlb olunmadığını soruşduqda cavab verir ki, onların valideynləri əlavə məşğələlər üçün ödəniş etməyiblər. Deməli, repetitorluq fəaliyyəti məktəbəqədər təhsil müəssisələrindən başlayır. Uşaqlarının psixo-fizioloji xüsusiyyətlərini nəzərə almayan valideynlər isə anlamırlar ki, bu cür yanaşma uşaqların psixikasına ciddi zərbə vura bilər.

Məktəbəqədər yaşlı uşaq üçün əsas fəaliyyət növü oyundur. Uşaq həyatı məhz oyun prosesində dərk edir. Əlavə məşğələlər uşağın oyun vaxtını əlindən alaraq onun təbii inkişafına maneə yaradır.

Uşaq üçün ən böyük idraki mənbə tərbiyəçi-müəllim deyil, ətraf aləmdir. Məktəbəqədər dövrdə uşağın təfəkkürü əyani-əməli və əyani-obrazlıdır. Bu dövrdə uşaq ətraf aləmlə təmasda olmalı, informasiyanı bilavasitə müşahidə yolu ilə əldə etməlidir. Uşağın əsas dərketmə vasitəsi onun əlləridir. Əllər işləmədikdə, zehnin də inkişafı məhdudlaşır. Əlavə məşğələlər uşağı belə bir zəngin aləmlə təmasdan uzaqlaşdırmış olur. Uşaq ətraf aləmlə təmasdan məhrum olduqda müşahidə qabiliyyəti də zəifləyir. Halbuki canlı aləmi müşahidə bilik qazanmanın

əsas mənbəyi və bu biliklərin bacarığa çevrilməsi üçün laboratoriyadır. Deməli, belə olan halda uşaq müşahidə imkanından da məhrum olur.

Uşaqların cəmiyyətin fəal üzvü olmaları üçün onların kiçik yaşlardan əmək bacarıqlarına yiyələnmələri mühüm şərtdir. Əlavə məşğələlərin təşkili isə uşaqları sadə əmək vərdişlərindən uzaqlaşdırır. Özünəxidmət bacarıqlarına yiyələnməyən uşaq həyatın əsas sosial bacarıqlarını da qazana bilmir. Nəticədə, belə uşaqlar böyüyəndə özünəinamlı olmur, başqalarından asılı vəziyyətə düşürlər.

Uşaq üçün məktəbəqədər müəssisə fəal sosiallaşma mühitidir. Məlumdur ki, sosiallaşmanın effektivliyi fərdin yaradıcı və dəyişdirici ictimai fəaliyyətdə iştirak etməsindən asılıdır. Belə ki, mükəmməl sosiallaşma, yalnız insan bu prosesin nəinki obyekti, eyni zamanda subyekti olduqda mümkündür. Subyekt kimi o, sosial norma və mədəni dəyərləri, özünüinkişaf və özünüreallaşdırma ilə birlikdə dərk edir, yəni təkcə cəmiyyətə uyğunlaşmır, həm də sosiallaşma prosesində fəal iştirak edir, özünə və həyat şəraitinə təsir göstərir [Həşimov, Ə.Ş., 1975]. Əlavə təşkil olunmuş məşğələlər uşaqların sosiallaşmasına mane olur, onların idraki baxımdan vaxtından əvvəl yüklənməsinə səbəb olur və bu da, nəticədə, uşaqlarda psixoloji problemlərin yaranmasına zəmin yaradır.

Uşaqları kiçik yarımqruplara bölərək əlverişsiz şəraitdə təşkil edilən məşğələlər onların kollektiv tərbiyəsinə mane olur, estetik zövqünə mənfi təsir göstərir və psixoloji gərginlik yaradır. Diqqət edək: uşaqlar eyni otaqdadır, lakin birgə fəaliyyətə imkan verilmir. Belə bir şəraitdə kollektiv tərbiyədən və intizamdan danışmaq nə dərəcədə mümkündür? Ona görə də valideynlər "Dediyimi yerinə yetirmir, sözümə baxmır" və s. deyərək uşaqlarından şikayətlənirlər. Onlar düşünürlər ki, intizamlı olmaq yalnız valideynin sözünü dinləməkdir. Problemin digər tərəfi də uşağın valideyninin sözünü niyə dinləməməsidir. Əslində, bu davranış uşağın süni şəkildə "intellektual yüklənmə"si nəticəsində baş verir. L.Tolstoy demişdir: "Valideynlər, uşaqlarınızı tərbiyə etməyə vaxt sərf etməyin, onsuz da sizə oxşayacaqlar. Yaxşısı budur ki, özünüzü tərbiyə edin." Tərbiyə nədir? – tərbiyə yaşlı nəslin gənc nəslə ötürdüyü həyat təcrübəsidir.

Hər məktəbəqədər təhsil müəssisənin öz tədris proqramı vardır. Uşaqları vaxtından əvvəl ibtidai təhsilə hazırlamaq düzgün yanaşma deyil. Oxu və yazı vərdişlərinə yiyələnən uşaq, ibtidai təhsilin birinci sinfində bilik qazanmağa etinasız münasibət göstərir, müəllim nə öyrətsə, "bilirəm" – deyir, II sinifdə isə yeni biliklər əldə etməkdə çətinliklərlə qarşılaşır. Çünki I sinifdə şagird özündə öyrənmə vərdişini formalaşdıra bilməyib. Bu vəziyyətdən narahat olan valideyn psixoloqa müraciət edərək "Uşağım əvvəl vunderkind idi, indi təlimlərdən niyə geri qalır?" sualını ünvanlayır.

Uşaqlar məktəbəqədər müəssisələrdən axşam evə qayıtdıqda yorğun olduqları üçün ailə üzvləri və yaxınları ilə ünsiyyət qumaqda çətinlik çəkir, erkən yatır,

səhər yenidən bağçaya yollanırlar. Belə birtərəfli və yeknəsək həyat tərzi uşaqların həmyaşıdları və doğmaları ilə səmimi, mehriban münasibət qurmalarına, böyüklərin tələb və göstərişlərinə əməl etmələrinə, üzərlərinə düşən vəzifə və borcları yerinə yetirmələrinə maneə yaradır. Nəticədə, uşaqlar intizam qaydalarını pozmuş olurlar. "Məktəbəqədər təhsil proqramı"nın tələblərinə əməl edilərsə, uşaqlar asan sosiallaşar, şən, gümrah və intizamlı olarlar.

İntizam dedikdə, hər bir kollektivin bütün üzvləri üçün məcburi olan müəyyən olunmuş qaydalara əməl etmək, üzərinə düşən vəzifələri yerinə yetirmək və öz şəxsi borclarına sadiq qalmaq başa düşülür. İctimai həyat hər yerdə və hər zaman yüksək intizam nümayiş etdirməyi, mövcud qaydalara əməl etməyi və onların yerinə yetirilməsinə məsuliyyətlə yanaşmağı tələb edir. İntizamlılıq hər bir şəxsin vacib xarakter xüsusiyyətlərindən biridir. İntizam, mövcud davranış qaydalarına riayət etməklə sıx bağlıdır. Uşaq kiçik yaşlarından ciddi intizama alışarsa, azad və məsuliyyətli şəxs kimi formalaşar. A.S. Makarenkonun fikrincə, intizam − tabe olmağın və azadlığın dioloji vəhdətidir [Əliyev, P.B., 2023]. İntizam tərbiyəsi, ilk növbədə, yaşlıların uşaqları oyunlara, təlim fəaliyyətinə cəlb etmə bacarığından asılıdır. Belə mühitdə intizam asanlıqla yaranır, uşaqlar onun mahiyyətini və əhəmiyyətini özləri dərk etməyə başlayırlar.

İntizamın psixoloji mexanizmi hər hansı bir əxlaqi keyfiyyətin inkişafında iştirak edir, onun əsasını həm duyğular, həm də təfəkkür təşkil edir. İnadkarlıq, səbr, qətiyyət, təmkin intizamlılığın əsasını təşkil edir. Psixoloji tədqiqatlar sübut edir ki, uşaq 3 yaşından müəyyən davranış normalarını mənimsəməyə başlayır, sonradan bu, borc hissinin formalaşmasına şərait yaratmış olur. Bəzən səhv etdikdə utanma hissi yaşayır, böyüdükcə öyrəndikləri və alışdıqları sosial qaydalara daha məsuliyyətlə yanaşmağa başlayırlar, böyüdüklərini də bununla hiss edirlər ("Paltarımı özüm geyinə bilirəm, artıq böyümüşəm", "Əl-üzümü özüm yuyuram, çünki böyümüşəm" və s.). 6 yaşda isə borc hissi onlarda təhrikedici an kimi çıxış edir − tanıdıqları insanların davranışlarını təqlid edirlər. Borc hissi kiçik məktəbəqədər yaşlı uşaqlarda məsuliyyət, qayğıkeşliyə keçid mövqeyindən çıxış edir ki, bu da uşaqlarda özünü büruzə verən kobudluğun, eqoizmin, bəzən də şəraitə görə yalan danışmağın qarşısını almağa kömək edir. Bu yaşda uşaqlarda baş qaldıran borc hissini formalaşdırmaq üçün onları sosial qaydalara əməl etmələrinə, çətin tapşırıqları yerinə yetirmələrinə təşviq etməli, intizam tərbiyəsi gücləndirilməlidir. Bu, onların nisbətən daha çətin və məsuliyyətli dövrə – ibtidai məktəbə daha asan uyğunlaşmalarına şərait yaradacaq.

İntizam və əxlaq bir-biri ilə sıx bağlıdır. Əxlaq normalarına riayət edən insan, eyni zamanda, intizamlı olur. İnsanlar hələ kiçik yaşlarından, xüsusən də kiçik məktəb yaşı dövründə əxlaqi cəhətdən düzgün tərbiyə olunmadıqda, gələcəkdə cəmiyyətdə uyğun davranış qaydalarını mənimsəmələri mümkünsüz olur. Tər-

biyənin mahiyyətini dərk etməyən insan cəmiyyətdə öz yerini tapa bilməz, vətənini sevə bilməz.

İntizam insan həyatının nizamıdır, ömrün düzgün istiqamətləndirilməsidir. İntizam daxili mədəniyyətin təzahürüdür. Mədəniyyət və intizam hər bir insanda potensial surətdə mövcud olan intellektual qüvvələrin səfərbərliyə alınması və bu qüvvələrdən daha səmərəli istifadə edilməsidir.

A.S.Makarenko demişdir: "Uşağa mümkün qədər çox hörmət etmək və ona çoxlu tələblər vermək prinsipinə riayət olunmalıdır [Əliyev, P.B., 2023]. Uşaq erkən yaş dövründən etibarən həyatında müəyyən qaydaların olduğunu görməli və böyüdükcə özü də bu qaydalara riayət etməlidir. Bu qaydalar ailənin rahat və mədəni yaşamasını təmin etməklə yanaşı, uşağın fiziki və mənəvi inkişafı üçün də faydalıdır. Uşaq bu qaydaların faydalı və vacib olduğunu dərk etməlidir.

Ümumiyyətlə, bütün ailə üzvləri üçün müəyyən edilmiş qaydalar sabit olmalıdır. Bu, o demək deyil ki, qaydalar heç vaxt dəyişilməzdir. Uşağın yaşı artdıqca rejim də dəyişməlidir. Belə ki, qoyulmuş qaydaların heç vaxt, heç kim tərəfindən pozulmasına yol verilməməlidir. Məsələn, uşaq üçün səhərlər idmanla məşğul olmaq və ya oyanarkən yatağını yığışdırmaq qayda kimi müəyyən edilibsə, bu qaydaların pozulmasına heç bir halda icazə verilməməli və onların ardıcıl və mütəmadi yerinə yetirilməsi tələb olunmalıdır.

A.Suxomlinski göstərirdi ki, uşağı insani münasibətlərin mürəkkəb aləminə daxil etmək tərbiyənin ən vacib məsələlərindən biridir. Uşağın ailədə ərköyün saxlanması, onun bütün istək və arzularının yerinə yetirilməsi, kobud və intizamsız davranışlarına görə əhəmiyyət verilməməsi, günahına görə cəzalanmalı olduğu halda başının sığallanaraq müdafiə edilməsi nəticəsində uşaq ən ağır cinayətlərlə üzləşmək vəziyyətində qala bilər. Bu xoşagəlməz tərbiyənin əsas səbəbi ata-ananın həddi aşan sevgisidir. Uşağın intizamsız böyüməsinin səbəblərindən biri də valideyn və tərbiyəçi-müəllimlərin onlara pis nümunə olmasıdır. Bəzən uşağın yanında müəllimi haqqında valideynin qeyri-etik söhbətləri ona mənfi təsir göstərir. Professor M.Muradxanovun qeyd etdiyi kimi: "Şagirdlərin davranışına verilən tələblər yalnız o halda müsbət nəticə verir ki, onu tərbiyə edən bütün şəxslər və orqanlar tələblər verməkdə vahidliyi gözləsinlər, başqa sözlə, hamı uşağa vahid tələblə yanaşsın" [Makarenko, A.S., 1950].

## Nəticə / Conclusion

Məqalədə məktəbəqədər təhsildə uşaqların intizam tərbiyəsi və onun bəzi problemləri mövzusunda aparılan təhlillər öz əksini tapır, "Təhsildə intizam tərbiyəsinə ciddi əməl olunması gənc nəsildə hansı keyfiyyətləri formalaşdıra bilər?" sualı əhatəli şəkildə cavablandırılır. Araşdırmalardan bu qənaətə gəlirik ki, insan tərbiyəsində intizam mühüm yer tutduğu üçün, istər təhsildə, istərsə də müasir ailələrdə bu məsələ diqqətdən kənarda qalmamalıdır. K.D.Uşinskinin dediyi kimi: "Yaşamaq − hiss etmək, düşünmək və hərəkət etmək deməkdir. Buna görə də yaşamağı öyrədən tərbiyə insana birtərəfli yox, hərtərəfli təsir etməli, öz təsirini həm düşünməyə, həm də hissiyata yönəltməlidir. Yalnız bu təsirlərin vəhdəti nəticəsində uşağın şəxsiyyəti təşəkkül tapır" [Uşinski, K.D., 1954].

Təhlillər göstərir ki, uşaqların cəmiyyətin fəal üzvü olmaları üçün onların kiçik yaşlardan əmək bacarıqlarına yiyələnmələri mühüm şərtdir. İntizam tərbiyəsi üzrə məktəbəqədər müəssisə, ailə və ictimaiyyətin birgə fəaliyyəti uşaqların fəal həyata hazırlanmasına şərait yaradar.

**Tədqiqatın yekunu olaraq aşağıdakı təklifləri irəli sürmək olar:** məktəbəqədər yaş dövründə uşaqların intizam tərbiyəsinə ciddi nəzarət olunması onlarda qayda-qanunlara riayət etmə vərdişini (məsələn, stol arxasında əyləşərkən qaməti düz saxlamaq, böyüklərlə, həmyaşıdları və doğmaları ilə qarşılaşarkən etiket qaydalarına uyğun davranış nümayiş etdirmək və s.) formalaşdırar və bu vərdişlər onlar böyüdükdə müxtəlif mühit şəraitində çətinlik çəkmədən yaşamalarına zəmin yaradar. Bununla əlaqədar məktəbəqədər müəssisələrdə ilin müəyyən aylarında "Nizam-intizam aylığı" keçirilməli, həmin müddətdə valideyn iclasları, pedaqoji söhbətlər təşkil olunmalıdır. Övladlarını müəssisəyə vaxtında aparıb-gətirən, uşaqların intizam tərbiyəsində daha çox aktivlik göstərən valideynlər qruplar üzrə, tərbiyəçi-müəllimlər isə müəssisə rəhbərliyi tərəfindən mükafatlandırılmalıdır.

**Məqalənin aktuallığı**. Müasir dövrdə təhsilin əsas məqsədi həyati bacarıqlara sahib, sosial fəallığa malik, işgüzar insan tərbiyə etməkdir. Məqalənin aktuallığı ondadır ki, uşaq şəxsiyyətinə hörmət etməklə, ciddi rejimə əsaslanan intizam tərbiyəsi yeni insanın formalaşmasına kömək edə bilər.

**Məqalənin elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi intizam tərbiyəsinin elmi-pedaqoji əsaslarını aşkarlamaqdan, mənəvi tərbiyə sistemində onun yerini müəyyən etməkdən ibarət olmaqla, şagirdlərdə intizam tərbiyəsinin imkanlarını əsaslandırmaqdan ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti**. Tədqiqat işində üzə çıxarılan pedaqoji ideya və mənəvi dəyərlər, müstəqil dövlətimizin azad vətəndaşının yetişməsində böyük

əməyi olan müəllim üçün əhəmiyyətli ideya verə bilər. Bununla belə, tədqiqatın nəticələrindən ibtidai təhsildə proqramların tərtibində və intizam tərbiyəsinin təşkilində istifadə edilməsi, təhsildə təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsinə şərait yaradar.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Ağayev, Ə.Ə. (2005). Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, Avropa.
2. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. (1993). Bakı.
3. Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" Qanunu. (1998). Bakı.
4. Əlizadə, H.Ə. (1998). Sosial pedaqogikanın aktual məsələləri. Bakı, "Səda".
5. Əliyev, P.B. (2023). Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodikası. Bakı, 460 s.
6. Həşimov, Ə.Ş. (1975). Yuxarı sinif şagirdlərinin şüurlu intizam tərbiyəsi. Bakı.
7. Mehdizadə, M.M. (1982). Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, "Maarif".
8. Məktəbəqədər təhsil proqramı (kurikulum). (2022). Bakı.
9. Muradxanov, M. (1962). Məktəblilərdə əxlaq tərbiyəsinin prinsip və üsulları. Bakı, Azərtədrisnəşr.
10. Bozhovich, L.İ. (2009). Lichnost i yeyo formirovaniye v detskom vozraste. SPb.: Piter, 398 str.
11. Makarenko, A.S. (1950). Seçilmiş pedaqoji əsərləri, Bakı.
12. Sukhomlinski, V.A. (1979). Ürəyimi uşaqlara verirəm. Bakı, "Maarif".
13. Ushinski, K.D. ( 1954). Seçilmiş pedaqoji əsərləri. I cild. Bakı, s. 511.
14. Vigotskiy, L.S. (2003). İstoriya razvitiya visshikh psikhicheskikh funktsiy. Moskva, 328 str.
15. Volkov, N.İ. (2006). Organizatsiya uchebnoy deyatelnosti v malikh gruppakh. SPb.: Piter, 311 str.